Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

31
YANVAR
2020-ci il

№ 17 (4148)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTANIN HƏLƏ ÖTƏN ƏSRDƏN BAŞLATDIĞI «ERABUNİ 2800» BLEFİNİN BEYNƏLXALQ İFLASI...

■ səh. 10 ■

AŞPA-nın Azərbaycan "tükünü tirə" çevirməsi - halbuki, son iki ildə Fransada 90, Almaniyada 26 jurnalist zorakılığa məruz qaldı

■ səh. 8 ■

XİN başçılarının Cenevrə görüşü ərəfəsində Paşinyan qondarma DQR-ə niyə getmişdi...

■ səh. 7 ■

Radikal müxalifət düşərgəsi 125 deputatın siyahısını 10 gün əvvəldən "düzüb-qoşdu" - belə siyahını kim tərtib edə bilməz ki...

■ səh. 4 ■

Paşinyan əleyhinə yeni siyasi partiyanın anonsu həbsxanadan gəldi

■ səh. 7 ■

ABŞ-da Boltonun kitablarının çapı niyə qadağan olunub...

■ səh. 5 ■

Dolların manata ikiqat təzyiqi gözlənir - manatın bahalaşmasının yeni dalğasının qarşısını necə almalı...

■ səh. 11 ■

Yüksək bank faizlərinin yaratdığı bahalaşma problemi - Azərbaycanda...

■ səh. 13 ■

Azərbaycanın kənd təsərrüfatında nə baş verir - iri və xırda heyvanlar niyə azalır...

■ səh. 13 ■



■ səh. 9 ■

## Cenevrə görüşü ərəfəsində Paşinyanın bəyanatları onu Rusiya və MQ qarşısında rüsvay etdi...



9 fevral seçkilərinin ölkədə həmrəylik və sabitliyin əsaslarına təsiri - radikalların proqnozunda «unudulmuş» məqamlar...

■ səh. 3 ■

Sarkisyan Yerusəlimdə İsraili daha da aşağıladı - «Knesset erməni genosidini siyasi səbəblə tanımırsa, çox təəssüf»...

■ səh. 5 ■



Pambıqçılıqda çatışmayan halqa - Azərbaycan hər il milyardlarla dollardan necə məhrum olur...

■ səh. 12 ■

■ səh. 4 ■

Sabirabadın Zəngənə və Narlıq kəndlərində seçicilər deputatlığa namizəd Əhliman Əmiraslanovu necə qarşıladılar?



■ səh. 6 ■

85 saylı Şamaxı dairəsindən deputatlığa namizəd Tamam Cəfərova kimdir...



■ səh. 3 ■

MDB məkanında ikipalatalı parlamentli ölkələrin sayı çoxalır - Perspektivdə Azərbaycanın da ikipalatalı parlament sistemi...



■ səh. 11 ■

Çindən Azərbaycana onlayn sifarişlə mal idxalı da dayandırıla bilər...



■ səh. 15 ■

Kiçikyaşlı qızların ərə verilməsi üzərində məhdudlaşdırıcı tədbirlər deyəsən zəifləyib...





# Azərbaycan və Fransa prezidentləri Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri müzakirə etdilər

**Fransa Prezidenti Emmanuel Makron yanvarın 29-da Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.**

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edilib, hər iki tərəf əlaqələrin inkişafından məmnun olduqlarını bildirib, iqtisadi sahədə əməkdaşlığın genişləndiyi vurğulanıb.

Dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri müzakirə ediblər. Prezident İlham Əliyev münaqişənin nizama salınması ilə bağlı Azərbaycanın mövqeyini bir daha Fransa Prezidentinə çatdırıb.

Telefon danışığı zamanı, həmçinin, regional təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

## Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib

**Prezident İlham Əliyev yanvarın 30-da ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tseretelini qəbul edib.**

Görüşdə Azərbaycanda qarşıdan gələn növbədənkənar parlament seçkiləri mövzusuna toxunulub, seçkilərin Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olduğu bildirilib, bu seçkilərdə xeyli sayda namizədlərin qeydə alınmasının, müşahidəçilərin fəal iştirakının önəmi vurğulanıb, bu proseslər Prezident İlham Əliyevin rəhbərliyilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsi kimi dəyərləndirilib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan rəhbərliyi seçki prosesinin ədalətli, şəffaf, Azərbaycan qanunvericiliyinə və beynəlxalq standartlara uyğun şəkildə keçirilməsi üçün lazımi şəraitin yaradılması istiqamətində bütün tədbirləri həyata keçirib.

## Goranboyda subartezian quyularının layihələndirilməsi və qazılmasına 1,19 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Goranboy rayonunda əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Goranboy rayonunun əhalisi 30378 nəfər olan 16 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 17 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün nəzərdə tutulmuş vəsaitin 1,19 milyon manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

Maliyyə Nazirliyinə bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılır, Nazirlər Kabineti isə Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## Azərbaycan Türkiyədəki zəlzələ ilə bağlı lazım olan hansı yardımları edib?

**Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral zəlzələ ilə bağlı Azərbaycanın Türkiyəyə yardım göstərməsi məsələsinə aydınlıq gətirib.**

"Trend"in məlumatına görə, səfir jurnalistlərə açıqlamasında bildirib ki, Azərbaycan tərəfi zəlzələ ilə bağlı Türkiyəyə lazımi yardım göstərib: "Zəlzələnin ilk anından etibarən Azərbaycanın rəsmi dövlət qurumları, həm Xarici İşlər, həm də Fövqəladə Hallar nazirlikləri Türkiyəyə yardım üçün hər zaman hazır olduqlarını bildirdilər".

Səfirin sözlərinə görə, zəlzələ baş verən andan Azərbaycan tərəfi müvafiq addımlar atıb: "Azərbaycan bizim yanımızda oldu. Həm hər iki ölkənin səfirlikləri, həm də müvafiq qurumları vasitəsilə əlaqələr saxlanıldı. Türkiyə tərəfi nə istədisə, Azərbaycan tərəfi onu da verdi. Yəni Azərbaycan Türkiyədəki zəlzələ ilə bağlı lazım olan yardımları edib".

Xatırladaq ki, yanvarın 24-ü Türkiyənin Elazığ əyalətinin Sivricə rayonunda 6.8 bal gücündə zəlzələ baş verib. Zəlzələ yerli vaxtla saat 20:55-də qeydə alınıb. Təbii hadisə nəticəsində ölənlərin sayı 41-ə çatıb.

# ATƏT DTİHB 9 fevral seçkiləri ilə bağlı aralıq hesabatını açıqladı

**ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Azərbaycanda fevralin 9-da keçiriləcək parlament seçkiləri üzrə uzunmüddətli müşahidə missiyasının aralıq hesabatı açıqlanıb.**

"Trend"in məlumatına görə, hesabat ATƏT-in rəsmi saytında dərc edilib.

Sənəddə qeyd edilib ki, Azərbaycan hökumətinin dəvətini aldıqdan sonra DTİHB yanvarın 7-də Seçki Müşahidə Missiyası (SMM) təsis edib. Səfir Peter Tejler-in rəhbərlik etdiyi SMM, Bakıda yerləşən 12 nəfərlik əsas heyətdən və yanvarın 14-də bütün ölkə üzrə 12 əraziyə göndərilən 26 uzunmüddətli müşahidəçidən (UMM) ibarətdir. Missiyanın üzvləri ATƏT-in 23 iştirakçı dövlətindən seçilib.




DTİHB, səsvermə, səslərin hesablanması və nəticələrin qeydiyyatı da daxil olmaqla, seçki günü proseslərini müşahidə etmək üçün iştirakçı dövlətlərdən 350 nəfər qısamüddətli müşahidəçinin ezam edilməsini xahiş edib.

Hesabatda vurğulanıb ki, hökümət DTİHB SMM-ə seçkilərin azad və ədalətli şəraitdə keçirilməsi üçün siyasi iradənin olduğunu bildirib: "Hökümət növbədənkənar parlament seçkilərinin Ermənistanla davam edən qarşıdurma şəraitində keçəcəyini qeyd edib. Həmçinin, həll edilməmiş münaqişənin ölkəyə bir sıra mənfi təsirlərinin olduğunu vurğulayıb. Hökümət, xüsusən də böyük sayda məcburi köçkün üçün səsvermənin təşkilini nəzərə alaraq, sözügedən vəziyyətin seçkilərin idarə olunmasını çətinləşdirdiyini qeyd edib".

Xatırladaq ki, uzunmüddətli missiya Bakıda yerləşən 12 mütəxəssisdən ibarət əsas qrupdan ibarətdir. DTİHB yanvarın 14-dən etibarən 30 uzunmüddətli müşahidəçinin ölkə daxilində yerləşdirilməsini istəyib, 350 qısamüddətli müşahidəçi isə seçki günü səsvermənin gedişatını izləyəcək.

# Elşad Hacıyev: "Cinayətlə bağlı məlumatlar məxfilik təmin olunmaqla nəzarətə götürülür"

**Vətəndaş məmnunluğunun ən yüksək səviyyədə təminatı üçün tərəfimizdən bütün zəruri tədbirlərin həyata keçirilməsi təmin olunur.**

Fəaliyyət sahəmizə daxil olan, ictimai münasibətləri təhdid edən sosial neqativ hallarla bağlı daxil olan bütün müraciətlər, istisnasız olaraq araşdırılır. Heç bir müraciətə etinasızlıq göstərilmir". Bu sözləri "Trend"ə Bakı Şəhər Baş Polis İdarəsinin Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib.

Onun sözlərinə görə, vətəndaşların müraciət etməsi üçün DİN-in "102 Zəng Mərkəzi" daxil olmaqla, internet-informasiya resurslarından, eləcə də sosial şəbəkələrdən geniş imkanlar yaradılıb:

"Müraciətin məzmunundan asılı olmayaraq, hər bir müraciət diqqətlə öyrənilir. Vətəndaşları narahat edən hallar, xüsusilə qeyri-aşkar şəraitdə cinayətə meyilli şəxslərin əməlləri ilə bağlı məlumatlar məxfilik təmin olunmaqla nəzarətə götürülür, ən müasir metodlar tətbiq olunmaqla yoxlanır. Vətəndaş heç bir ərazi polis orqanına dəvət olunmadan, sorğu-suala çəkilmədən təxirəsalınmaz qaydada müvafiq tədbirlər həyata keçirilir.

Hər bir vətəndaş əmin olsun ki, onu narahat edən hallara qarşı polis barışmaz mövqedədir, cəmiyyəti təhdid edən istənilən hala qarşı mübarizədə onun yanındadır, onun maraq və



mənafelərinin mühafizəçisidir. Polis haqqında ictimai fikrə yönəldilən böhtan və yalanlar polisin fəaliyyətinə kölgə salmaqda aciz görünür. Nəzərə alınmalıdır ki, istisnalar ümumi mənzərəni dəyişə bilməz.

Polis Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biri olmaqla, fəaliyyətini gündən-günə təkmilləşdirir, formalaşdırır. Dövrün çağırış və təhdidlərinə laqeyd yanaşmır, fasiləsiz olaraq, vətəndaş maraqlarının keşiyindədir.

**Qanunla dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələri var. Hər kəsin üzərinə vəzifələr yalnız Konstitusiya ilə və ya qanunla qoyula bilər. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir".**

# 9 fevral seçkilərinin ölkədə həmrəylik və sabitliyin əsaslarına təsiri - radikalların proqnozunda "unudulmuş" məqamlar...

**Məlum olduğu kimi, 9 fevral 2020-ci ildə Azərbaycanda yeni parlament seçkiləri keçiriləcək. Ölkənin davamlı inkişafının təmin olunması üçün islahatların bütün sahələr üzrə aparılması vacibdir. Təbii ki, qanunverici orqan olan Milli Məclisdə də yeniləşmə olmalıdır.**

*”Radikalların bununla bağlı verdiyi bədbin proqnozlar reallığa söykənmir”*

Milli Məclisin buraxılması ölkədə aparılan islahatlar kursunun mahiyyətindən doğan zərurət idi. Nəzərə almaq lazımdır ki, ölkədə elə bir sfera qalmayıb ki, islahatlar onu əhatə etməsin. Sosial, iqtisadi, məhkəmə-hüquq sistemində və digər sahələrdə aparılan islahatlar öz nəticəsini verir. Bu baxımdan, Milli Məclisin buraxılması təkmilləşmə kursuna, yeni şəraitə, tərəqqiyə uyğun prosesdir.

Radikal müxalifət nümayəndələri növbədənkənar parlament seçkilərinin keçirilməsindən özlərinin siyasi məqsədləri üçün istifadə edərək, müxtəlif bəyanatlar verir, fərqli iddialarla çıxış edirlər. İlk əvvəl sözügedən qərarın cəmiyyət tərəfindən qəbul olunmayacağı fikirlərini ortaya atdılar. Çox keçmədi ki, onların bu iddiaları özünü doğrultmadı. İndi də belə proqnozlarla çıxış edirlər ki, 9 fevral seçkilərindən sonra cəmiyyətdə sosial gərginlik yaranacaq və bu, artan xətt üzrə inkişaf edəcək. Nəticədə bütün bunlar ölkədəki siyasi sabitliyə ciddi mənfi təsir göstərəcək. Guya bütün bunlar ölkədə ciddi çaxnaşmalara rəvac verəcək.

Bütövlükdə, parlament seçkiləri ölkədə sosial-siyasi həmrəyliyə və sabitliyin əsaslarına necə təsir göstərəcək?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, 9 fevral seçkiləri bu baxımdan hər hansı risqlər vəd etmir: "Parlament seçkilərindən sonrakı vəziyyət ölkədə sosial-siyasi həmrəyliyə və sabitliyin əsaslarına mənfi mənada təsir etməyəcək. Niyə? Çünki bunu şərtləndirən bir sıra faktorlar var. Məsələ ondadır ki, əhalinin maddi təminatında hansısa ciddi sıxıntılar yoxdur. Ölkədə aparılan islahatlar fonunda bir sıra sosial paketlər qəbul olunub. Həmin sosial paketlər sayəsində aztəminatlı ailələrin maddi vəziyyəti yaxşılaşıb. Əhalinin gəlirləri artıb, inflyasiya səviyyəsi aşağıdır. Neftdən əldə olunan gəlirlər azalmayıb, əksinə, artıb. Azərbaycanın valyuta ehtiyatları 51 milyard dolları ötüb. Digər tərəfdən, aparılan islahatlarla əlaqədar idarəetmə sadələşdirilir. İnnovativ metodlardan istifadə edilir. Əvvəlki illərdə olduğu kimi, vətəndaşlar süründürməçiliklə üzləşmirlər. Cavan, bacarıqlı kadrlara dövlət idarəçiliyində geniş yer verilir. Əvvəlki yaşlı məmurların çoxu siyasi səhnədən gedib. Bütün bu prosesləri də cəmiyyət maraqla izləyir. Başqa bir tərəfdən, bir sıra ölkələrdə mövcud olan qeyri-stabil vəziyyətin hansı kataklizmlərə yol açdığını hamımız görürük. Cəmiyyət də bütün bunların fərqindədir. Bütün bunlardan çıxış edərək hesab edirəm ki, parlament seçkilərindən sonra ölkədə siyasi və sosial sabitliyin pozulmasına yönəlik hər hansı bir narahatlıq olmayacaq. Əksinə, sabitliyin daha da möhkəmlənəcəyi gözlənir. Radikalların bununla bağlı verdiyi bədbin proqnozlar reallığa söykənmir".

***Seyid Camal Əzimbəyli:** ”Parlament seçkilərindən sonra ölkədə siyasi və sosial sabitliyin pozulmasına yönəlik hər hansı bir narahatlıq olmayacaq”*



***Vidadi ORDAHALLI***

# MDB məkanında ikipalatalı parlamentli ölkələrin sayı çoxalır - Perspektivdə Azərbaycanın da ikipalatalı parlament sistemi...

**Türkmənistanın yeni parlamenti Məclis və Xalq Maslixatı olmaqla ikipalatalı sistemə keçəcək. Yeni sistemə keçid Prezident Qurbanqulu Berdiməhəmmədov tərəfindən Xalq Maslixatının iclasında irəli sürülüb. Bununla da Türkmənistanın birpalatalı Məclisi ikipalatalı parlamentə çevriləcək.**

***Əhəd Məmmədli:** ”Bizə ikipalatalı yox, daha güclü parlament lazımdır”*

Məclis və Xalq Maslixatı müxtəlif səlahiyyətlərə malik olsalar da, parlamentə bərabər hüquqla daxil olacaqlar. Türkmənistanda aparılan Konstitusiya islahatı məhz bu dəyişiklikləri nəzərdə tutur.

Yeni parlament Milli Şura adlanacaq. Onun qanunverici palatasının Məclis, nümayəndələr palatasının isə Xalq Maslixatı adlandırılması təklif olunur. Qeyd edək ki, artıq bir sıra MDB ölkələrində ikipalatalı parlament sistemi var. Rusiya və Qazaxıstanı da buna misal göstərə bilərik. Əvvəl bu sistemin Rusiyada tətbiq edilməsi belə fikirləri formalaşdırır ki, bu amil digər ölkələrə də təsirsiz ötüşməyib. Məlumatlara görə, yaxın vaxtlarda MDB ölkələri arasında ikipalatalı parlamentə keçid edənlərin sayı arta bilər. Belə olan təqdirdə bunun Azərbaycan üçün nə kimi təsirləri ola bilər. Bilirik ki, Azərbaycanda birpalatalı parlament mövcuddur. Bu, ikipalatalı sistemə keçən ölkələrlə bizim parlamentlərarası münasibətlərimizin qurulmasına necə təsir göstərə bilər? Bütün bunların fonunda, Azərbaycanın da deyilən sistemə keçidi məqbul sayıla bilərmi?

Politoloq Əhəd Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, MDB ölkələri arasında bu sistem ilk olaraq Rusiyada mövcuddur: "Rusiyanın yaxın ətrafında olan ölkələrə təsiri danılmazdır. Azərbaycana isə iki ölkənin - Türkiyə və Rusiyanın təsir gücü birmənalıdır. Bunu həm müsbət, həm də mənfi anlamda başa düşmək olar. Mən şəxsən Azərbaycanın tam parlamentar sistemə və xüsusən də ikipalatalı sistemə keçidinin əleyhinəyəm. Niyə? Çünki bizim ərazi bütövlüyü məsələmiz hələ tam həll edilməyib. Azərbaycan elə də çoxmillətli və çoxkonfessiyalı ölkə deyil. Nisbətən kiçik ölkələr üçün bu modeli məqbul saymıram. Düzdür, bizdə də müxtəlif din və millətlərin nümayəndələri yaşayır. Ancaq onlar arasında aşkar üstünlük uğrunda ciddi rəqabət yoxdur. Proposional seçki sisteminin bərpasının isə tərəfdarıyam. Mojaritar sistem, ümumiyyətlə, götürülməli və proporsional sistem olmalıdır. Belə olacağı halda, partiyaların cəmiyyətdəki rolu artacaq. Siyasətlə peşəkarlar məşğul olacaqlar. Bunun əsasında da formalaşacaq parlament daha da demokratikləşəcək.

Bizə ikipalatalı yox, daha güclü parlament lazımdır. Bunun da formalaşmasının ən optimal variantı parlamentdəki deputat sayını artırmaq və proporsional sistemlə deputatları seçməkdir. Parlamentlərarası münasibətlərin qurulmasına isə bu amilin heç bir təsiri ola bilməz. Dünyada bir çox ölkə var ki, onların fərqli parlament quruluşları olsa da, qanunverici təsisatları arasındakı əməkdaşlıq yüksək səviyyədədir".



***Məhəmmədəli QƏRİBLİ***

# Sabirabadın Zəngənə və Narlıq kəndlərində seçicilər deputatlığa namizəd Əhliman Əmiraslanovu necə qarşıladılar?

**65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi akademik Əhliman Əmiraslanovun təbliğat-təşviqat kampaniyası çərçivəsində Sabirabadın Zəngənə və Narlıq kəndlərində seçicilərlə görüşləri keçirilib.**









Görüşlərdə çıxış edən YAP Sabirabad rayon təşkilatının sədri Məleykə Ağayeva bildirib ki, Əhliman Əmiraslanov sabirabadlılar üçün doğma insandır: "Əhliman müəllimin Milli Məclisdəki fəaliyyəti ümumilikdə xalqımız və dövlətimiz üçün çox səmərəli olub. Bu mənada inanıram ki, sabirabadlılar bu seçkidə də hörmətli akademikimizi yekdilliklə dəstəkləyəcəklər".

Görüşlərdə çıxış edən Əhliman Əmiraslanov bildirib ki, ölkəmizdə bu gün çox böyük iqtisadi və siyasi islahatlar həyata keçirilir: "Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etmiş, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənmişdir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yolla irəliləyir. Burada əsas məram və niyyət Azərbaycanda həyata keçirilən siyasətin xalqın sosial rifahını daha da yüksəltməsinə xidmət etməkdir".

Görüşlərdə çıxış edən çoxsaylı seçicilər akademik Əhliman Əmiraslanova səs verəcəklərini birmənalı şəkildə ifadə ediblər.

# Radikal müxalifət düşərgəsi 125 deputatın siyahısını 10 gün əvvəldən "düzüb-qoşdu" - belə siyahını kim tərtib edə bilməz ki...

**Milli Şuranın sədri Cəmil Həsənli qarşıdan gələn parlament seçkilərində kimin deputat mandatı qazanacağı ilə bağlı bir siyahı tutub və onu "dəqiq məlumat" kimi yayıb. Özü də C. Həsənli təqdimatı elə edib ki, guya böyük zəhmət hesabına, iqtidardakı agenturasının köməyilə bu məlumatları toplaya bilib.**



***Məhərrəm Zülfüqarlı:** "İndidən elə təəssürat yaradırlar ki, həqiqi qələbə qazanana da şübhə ilə yanaşılsın"*

Milli Şura sədri bir az da irəli gedərək, seçkinin demokratik olmayacağını əsas gətirib: "Milli Şura olaraq əldə etdiyimiz məlumatlar əsasında 2015-ci ilin parlament seçkilərindən 22 gün öncə MM-ə seçiləcək deputatların siyahısını mətbuatda dərc etmişdik. Həmin siyahıda göstərilmiş 125 nəfərdən 121-i düz çıxmışdı. Qarşıdakı növbədənkənar parlament seçkiləri ilə bağlı hakimiyyət orqanlarından, icra və seçki strukturlarından əldə etdiyimiz məlumatlar əsasında fevral ayının 9-da parlamentə seçiləcək deputatların siyahısını seçkidən 12 gün öncə Sizə təqdim edirik. Bu siyahı ehtimallar əsasında deyil, bilavasitə müxtəlif hakimiyyət orqanlarından, rayon icra strukturlarından, MSK, DSK-lardan və hakimiyyətə yaxın olan digər mənbələrdən əldə edilmiş məlumatlar əsasında tərtib edilmişdir. Qeyd edilən məlumatlar əsasında hazırlanmış bu siyahı Milli Şura tərəfindən cəmiyyətə təqdim edilir və bəzi dairələr haqqında yekun qərar verilmədiyindən, siyahıda 5-6 dairə üzrə nəticələr fərqli ola bilər. Ölkədə seçki deyilən bir şey olmadığı üçün seçki gününü - 9 fevralı da gözləməyə elə bir ehtiyac yoxdur. Buyurun, seçki günündən 12 gün öncə - 9 fevralda "seçiləcək" deputatların siyahısı ilə tanış olun".

Siyahıya nəzər saldıqda məlum olur ki, əslində, Cəmil Həsənli burada həmının edə biləcəyi bir işi ortaya qoyub. Azacıq proseslərdən məlumatı olan adam bir saatın içində məntiqə və namizədlərin nüfuzuna əsaslanıb eyni siyahını təqdim edə bilər. Onda isə Cəmil Həsənlinin bu cür çaşdırıcı gedişi hansı məqsədə hesablana bilər?

Seçki üzrə ixtisaslaşmış QHT rəhbəri, professor Məhərrəm Zülfüqarlı qəzetimizə bildirdi ki, belə siyahılarla manipulyasiya çoxdan var: "Yadınızdadırsa 1995-ci ildə belə bir siyahını Nemət Pənahlı yaydı. Burada qəribə nəsə yoxdur. Məntiqlə bunu etmək mümkündür. Həm də namizədlərin kimliyinə, aparılan kampaniyanın səviyyəsinə baxıb 100 faizə yaxın ehtimallar səsləndirmək olar. İş burasındadır ki, bundan siyasi alver rıçaqı kimi istifadə edirlər. Qeyd edirlər ki, guya belə bir siyahını onlara kimsə ötürüb. Əslində, bunun bir adı var, seçkiyə şübhə yaratmaq. Seçilə biləcək namizədlərin qarşısını almaq. Görürsünüz ki, elə C.Həsənlini ən çox tənqid edənlər siyahıda adı qeyd edilənlərdir. Onlar hesab edirlər ki, qazanacaqları əsl qələbəyə bu şəkildə kölgə salırlar. İndidən elə təəssürat yaradırlar ki, həqiqi qələbə qazanana da şübhə ilə yanaşılsın. C.Həsənli bununla siyasi məqsədlərini həyata keçirir. Bunu hansısa bloger, jurnalist də edə bilər. Ancaq C.Həsənli qurum sədridir, o bu cür yanaşması ilə təxribatla məşğul olur. Mənim də qələbəsinə tam əmin olduğum namizədlər var. Durub onların adını maraqlı bir təqdimatla indidən açıqlasam, onların qələbəsinə şübhə yaranacaq. C.Həsənlinin işi-gücü qurtardığı üçün, belə krossvordlar cızmağa başlayıb. Gedib öz işlərilə məşğul olsa, daha hörmətli olar".

***Məhəmmədəli QƏRİBLİ***

# Sarkisyan Yerusəlimdə İsraili daha da aşağıladı - "Knesset erməni genosidini siyasi səbəblə tanımırsa, çox təəssüf"...

***Elşən Mustafayev:** "Kifayət qədər informasiya qaynağına çıxışı olan ölkə kimi ola bilməz ki, həmin hadisələrlə bağlı İsrailin əlində sübutlar olmasın"*

**Məlum olduğu kimi, Ermənistan Prezidenti Armen Sarkisyan İsraildə səfərdə olub. Səfər Holokost hadisələrinin ildönümünün qeyd edilməsi çərçivəsində baş tutub. Ermənistan Prezidenti İsrailin ictimai televiziyasına müsahibə verib və həmin ölkənin rəsmi qurumlarını aşağılayan mövqe ortaya qoyub.**

O bildirib ki, İsrail parlamenti "erməni soyqırımı"nı siyasi səbəblərə görə tanımır: "Mən bunun üçün başqa səbəb görmürəm. Holokost və "erməni soyqırımı"ndan nəticə çıxarmaq lazımdır".

Göründüyü kimi, Ermənistan Prezidenti İsrailin boynuna haqq qoyur və saxta "soyqırımı" tanımağa borclu olduqlarını qeyd edir. Maraqlıdır ki, İsrail A.Sarkisyanın bu sərsəmləməsinə də lazımi cavab verməyib.

Politoloq Elşən Mustafayev qəzetimizə bildirdi ki, Ermənistan Prezidentinin bu şəkildə davranış nümayiş etdirməsinin səbəbləri var: "Əvvəla demək lazımdır ki, onun orada nə işi var? Nə vaxtdan Ermənistan faşizmlə mübarizə aparan olub? Ermənistan Prezidenti ilk yalanını həmin tədbirdəki çıxışı zamanı danışdı. Guya ölkəsinin faşizm üzərindəki qələbədə böyük rolunun olduğunu bildirdi. Təbii ki, bunların hamısı yalandır. Çünki Ermənistan indinin özündə də faşizmi dəstəkləyən siyasət yürüdür. Hitlerin silahdaşlarının və yəhudilərin qırğınında birbaşa əli olan şəxslərin xatirəsini əbədiləşdirən bir ölkənin başçısını faşizmlə bağlı tədbirdə yuxarı başa keçirəndə o da İsraili aşağılayacaq. Özlərini yəhudilərlə eyni təzyiqə qoyub, soyqırımdan əziyyət çəkən ölkə kimi qələmə verirlər. İsrail parlamentinin siyasi səbəblərə görə "soyqırımı" tanımadığını deyirsə, bu doğru deyil. Ola bilər ki, İsrail kimi ölkə bu amili də nəzərə alsın. Amma bu həm də obyektivliklə bağlıdır. Kifayət qədər informasiya qaynağına çıxışı olan ölkə kimi ola bilməz ki, həmin hadisələrlə bağlı İsrailin əlində sübutlar olmasın. Əminəm ki, İsrailin əlində ermənilərin iddialarını yalan çıxara biləcək kifayət qədər material var. Bunun bir səbəbi də İsrailin ermənilərin yalanlarından xəbərdar olması ilə əlaqəlidir. Görün bunlar necə millətdir ki,



özlərinə yer edən kimi başlarına sığal çəkənə qarşı çıxmağı bacarırlar. Ermənisan rəhbəri həmin tədbirə heç baxmağı haqq etmirdi, nəyin ki, orada çıxış edib, yalan söyləməyi. Çox təəssüf edirəm ki, İsrail hələ də Ermənistan rəhbərinin böhtanlarına lazımi reaksiya vermir".

Ekspertin sözlərinə görə, artıq erməni yalanları dünyada ifşa olunub: "Sübut olundu ki, həmin təzyiq üsulları ilə Türkiyəyə nəsə etmək mümkün deyil. Hər halda, bunu nəzərə alan İsrail Ermənistanla bir qədər məsafəli davranmağa üstünlük verməlidir. Əks halda, tez-tez belə böhtanlarla üzləşməli olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ-da Boltonun kitablarının çapı niyə qadağan olunub...

**ABŞ Prezidenti Donald Trampın milli təhlükəsizlik üzrə sabiq müşaviri Con Bolton yeni kitab üzərində işləyir. Kitabın mart ayında çap edilməsi nəzərdə tutulur. Ancaq kitabın bir nüsxəsini ələ keçirməyi bacaran "Nyu York Tayms" qəzeti orada bəzi məqamları yayıb.**

*"Fikrimcə, məhz bu səbəbdən kitabın çapına qadağa qoyulub"*

***Elman Nəsirov:** "Bu baş versə, noyabrda keçiriləcək prezident seçkilərində Trampın qalib gəlməsi sual altına düşə bilər"*

Keçmiş milli təhlükəsizlik müşaviri Bolton hələ çap olunmamış kitabında çox ciddi iddialarla çıxış edib. Bolton prezidentə istinadla yazır ki, Tramp avqustda Ukraynaya 391 milyon dollarlıq hərbi yardımı yubatmaq istədiyini deyib və bunu Kiyevin demokratlarla bağlı təhqiqat başlatmasına nail olmaq üçün etmək istəyib. İddialara görə, daha çox keçmiş vitse-prezident Jo Baydenin oğlu Hunter Bayden barəsində araşdırma aparılması istənilib.

Demokratlar Boltonun ifadə verməyə çağırılmasını istəyirlər, Ağ ev isə buna qarşı çıxır. Senatda bu məsələ səsverməyə qoyula bilər, amma respublikaçılar da şahidlərin ifadə verməyə çağırılmasının əleyhinə çıxırlar. Kitabın nə vaxt çapdan çıxacağı bəlli deyil. Ağ Ev yanvarın 29-da Boltonun vəkilinə məktubunu yayıb, əlyazmada "ciddi həcmli məxfi informasiya"nın yer almasına etiraz edib. Bolton və vəkili isə kitabda hər hansı məxfi informasiyanın olmadığını bildirirlər. Bu arada o da məlum olub ki, Boltonun sözügedən kitabının çapına qadağa qoyulub. Ağ Ev bəyan edib ki, bu vəziyyətdə kitab çap oluna bilməz. Bunu onunla əsaslandırırlar ki, əlyazmada məxfi informasiyalar yer alıb. Bolton isə deyilənləri qəbul etmir.

Göründüyü kimi, demokratiyanın, söz azadlığının və digər ali dəyərlərin qoruyucusu kimi təqdim olunan ABŞ-da kitab çapına qadağa qoyulur.

Bütün hallarda, kitabın çapına qadağa qoyulmasının arxasında nə dayanır?

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun sözlərinə görə, Boltonun kitabının çapına qadağanın qoyulması qarşıdakı prezident seçkiləri ilə bağlıdır: "Əvvəla bir çox hallarda demokratiyadan böyük dövlətlər öz geosiyasi maraqlarını həyata keçirmək üçün bir vasitə kimi istifadə edirlər. Demokratiya örtüyündən istifadə edərək öz siyasətlərini həyata keçirirlər. Təəssüf ki, bu siyasət indi də davam edir. ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri işləmiş Con Boltonun yazdığı kitabın çapına yüksək səviyyədə qadağa qoyulması və bunun guya hansısa məxfi məlumatları olması ilə əlaqələndirilməsi əsas səbəb deyil. Bunun arxasında başqa məqamlar dayanır. Nəzərə almaq lazımdır ki, Bolton adi bir adam deyil. O, Prezidentin müşaviri olmazdan əvvəl ABŞ-ın BMT-dəki nümayəndəsi olub. 2003-cü ildə İraq kampaniyasının gedişatında onun xüsusi rolu olub, sərt siyasətçi imicinə malikdir. O üzdən, onun müəllifi olduğu kitab nəşr olunsaydı, bu çox ciddi rezonans yaradardı. Ən başlıcası, bu kitab hakimiyyətdə olan Respublikaçılar Partiyasının imicinə ciddi zərbə vura bilərdi. Nəticədə noyabrda keçiriləcək prezident seçkilərində Trampın qalib gəlməsi sual altına düşə bilər. Fikrimcə, məhz bu səbəbdən kitabın çapına qadağa qoyulub. Çox güman ki, Boltonun kitabının çapına prezident seçkilərindən sonra icazə veriləcək".



***Vidadi ORDAHALLI***

# 85 saylı Şamaxı dairəsindən deputatlığa namizəd Tamam Cəfərova kimdir...

**9 fevral 2020-ci il tarixində keçiriləcək növbədənkənar parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası davam edir. "Trend" bildirir ki, bu il ölkəmizdə diqqət çəkən təbliğat-təşviqat kampaniyalarından biri də Şamaxı şəhərində müşahidə edilir.**

İstisnasız olaraq bütün kəndlərdə görüşlər keçirən 85 saylı Şamaxı seçki dairəsindən deputatlığa namizəd Tamam Cəfərova hər evdə, hər qapıda böyük səmimiyyət və inamla qarşılanır.

Əslən Şamaxıdan olan, seçki kampaniyası ilə izdiham yaşadan Tamam Şamməmməd qızı Cəfərova kimdir?

Tamam Cəfərova 5 aprel 1959-cu ildə Bakı şəhərində anadan olub. 1976-cı ildə Bakı şəhəri 180 saylı orta məktəbi qızıl medalla bitirən Tamam Cəfərova həmin il ulu öndər, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən gənclərin Azərbaycandan kənarda təhsili proqramı çərçivəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Tarix fakültəsinə daxil olub. 1981-ci ildə universiteti bitirərək Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Sov.İKP tarixi kafedrasında müəllim kimi əmək fəaliyyətinə başlayıb.

Tamam Cəfərova 1987-1990-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) aspiranturasında təhsilini davam etdirib, 1991-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb.

O, 1995-2000-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutu ilə bərabər Azərbaycan Dövlət İqtisad Universitetində də müəllimlik fəaliyyəti ilə məşğul olub.

2007-ci ilin fevral ayına qədər Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Siyasi tarix", 2007-2019-cu illərdə Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər və iqtisadiyyat" fakültəsinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedralarında dosent vəzifəsində çalışıb.

Ömrünün 40 ilini müəllimlik fəaliyyətinə həsr edən Tamam Cəfərova 1981-2020-ci illərdə paralel olaraq 4 ali təhsil müəssisəsində - Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universitetində müəllim kimi çalışmış və o, 2019-cu ilin mart ayında Azərbaycan Dillər Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru təyin edilmişdir. Eyni zamanda bu universitetin Beynəlxalq münasibətlər kafedrasının dosenti, çoxsaylı elmi məqalələrin müəllifidir.

2019-cu ilin oktyabr ayı Tamam Cəfərovanın həyatında xüsusilə əlamətdar olub. Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə Tamam Cəfərova Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilib.









Tamam Cəfərovanın fəaliyyəti təkcə təhsil sahəsi ilə məhdudlaşmamışdır. Belə ki, ölkənin ictimai-siyasi həyatında da fəal iştirak edən Tamam Cəfərova 2000-2005-ci illərdə Milli Qeyri-hökumət Təşkilatları Forumunun vitse-prezidenti, eyni zamanda 2003-cü ildə prezident seçkiləri ərəfəsində yaradılmış "Yeni Azərbaycan Naminə" ictimai hərəkatının həmtəsisçisi olub.

2006-2016-cı illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü olub.

Tamam Cəfərovanın ölkəmizdə qadın hərəkatının təməlinin qoyulmasında, o cümlədən inkişafında da xüsusi xidmətləri olub. 2001-ci ildən BMT Qadın İnkişaf Fondunun (UNIFEM) Azərbaycandakı Qadın Koalisiyasının (Koalisiya 1325) həmtəsisçisi, Cənubi Qafqaz Qadın Koalisiyasının üzvü, 2005-ci ildən Azərbaycan Qadınlarının Milli Konfederasiyasının həmtəsisçisi və həmsədridir.

O, 2000-ci ildən "Universitet Təhsili Qadınlar" İctimai Birliyinin təsisçisi və hazırkı dövürədək sədridir.

Azərbaycan qadınlarının hüquqi maariflənməsi sahəsində həyata keçirilmiş çoxsaylı layihələrin rəhbəri, yerli və beynəlxalq təlim və konfransların iştirakçısı olub. Gender problemləri və konfliktologiya üzrə ekspert və regional statuslu təlimçidir. Tamam Cəfərova həm də 2004-cü ildə ABŞ-ın Konsensus Quruculuğu İnstitutunun "Konfliktologiya və danışıqaparma bacarıqları" adlı kursunu bitirib.

O, konfliktologiya sahəsində Azərbaycanda ixtisaslaşan ilk təlimçi qadınlardan biridir.

Bitərəfdir. Subaydır, 2 övladı, 1 nəvəsi var.

İşgüzarlığı, peşəkalığı, həmçinin ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatındakı aktiv fəaliyyətindən əldə etdiyi təcrübələrlə Tamam Cəfərova Azərbaycana, o cümlədən, xalqına bundan sonra millət vəkili olaraq xidmət göstərmək istəyir. Tamam Cəfərovanın seçki platforması Milli fəaliyyət və Yerli fəaliyyət olmaqla iki istiqamətə ayrılır:

**Milli fəaliyyət:**

- Yeni parlamentdə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin islahatlar və yeniləşmə siyasətinə, dayanıqlı inkişaf proqramlarına dəstək vermək;

- Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında titanik rolu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın fədakarcasına gördüyü işlərə dəstək vermək;

- Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə nail olmaq üçün Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında fəal iştirak etmək;

- Sosial-iqtisadi islahatların davam etdirilməsinə, vətəndaşların həyat səviyyələrinin yüksəldilməsinə xidmət edən qanunların qəbul edilməsinə çalışmaq;

- Elm və təhsilin beynəlxalq standartlara uyğunlaşdırılmasına və gənclərin dünya təhsil sisteminə inteqrasiyasına çalışmaq;

- Ölkəmizdə həyata keçirilən səhiyyə islahatlarına dəstək vermək, icbari tibbi sığortanın həyata keçirilməsi ilə bağlı normativ sənədlərin qəbulunda fəal iştirak etmək;

- Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin korrupsiya və məmur özbaşnalığına qarşı apardığı qətiyyətli mübarizəyə dəstək vermək, ictimai nəzarətin həyata keçirilməsində fəal iştirak etmək.

**Yerli fəaliyyət:**

- Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq seçicilərin yanında olmaq, onların problemlərinin həllinə çalışmaq;

- Şamaxı rayonunda həyata keçirilən sosial infrastruktur layihələrin icrası zamanı ictimai nəzarətin həyata keçirilməsində fəal iştirak etmək;

- Vətəndaş cəmiyyəti qurumlarının yaradılmasının və könüllülük hərəkatının təşviqi;

- Gənclərin asudə vaxtının səmərəli təşkilinə, sağlam həyat tərzinin təbliğinə nail olmaq;

- Qadınların və qızların problemlərinin həllinə çalışmaq, onların inkişafı ilə bağlı sistemli layihələr həyata keçirmək, iqtisadi müstəqiliyinin və ictimai-siyasi fəallığın artmasına nail olmaq;

- Azərbaycanda mövcud olan unikal multikultural mühitin təşviqi və təbliğinə dəstək vermək;

- Vətəndaşların məşğulluq proqramlarına cəlb edilməsi istiqamətində layihələr həyata keçirmək;

- Şamaxıda üzümçülüyün bərpası və dünya bazarına çıxarılması istiqamətində dövlət siyasətinə dəstək olmaq;

- Regionda turizmin daha da inkişaf etdirilməsi ilə bağlı müxtəlif proqramlar hazırlamaq.

Parlament seçkilərinə bitərəf kimi qoşulan Tamam Cəfərova millətinə, dövlətinə sadiq olan, Vətənini sevən şamaxılılarının rəğbətini qazanmağı artıq çoxdan bacarıb. Onun sakinlərlə görüşlərində olmaq, çəkilən kadrlara baxmaq kifayətdir ki, insanların ürəklərindəki məhəbbəti, gözlərindəki işığı görəsən. Təbliğat-təşviqat kampaniyasının izdihamlı şəkildə keçirilməsinin ən böyük səbəbi də məhz budur. Doğma həmvətənlərinin bu təmənnasız münasibətini və həqiqi millət vəkilindən gözləntilərini doğrultmaq, səslərinə səs vermək Tamam Cəfərovanın ən böyük amalıdır. Və əlbəttə, bu, vətəndaş, insan qarşısında xidmət borclusu olmaq deməkdir. Tamam Cəfərova hər bir şamaxılının xidmətində dayanmaq missiyasını özünə şərəf bilir. Onun məqsədi həm şamaxılıların problemlərinin həllinə çalışmaq, həm günü-gündən inkişaf edən Azərbaycan dövlətinə xidmət etmək, həm də beynəlxalq arenada ölkəmizi ləyaqətlə təmsil etməkdir.

Tamam Cəfərovanın seçki kampaniyasını aşağıdakı linklər vasitəsilə də daha yaxından izləyə bilərsiniz:

**http://facebook.com/tamamjafarova**

**http://instagram.com/tamamjafarova**

# XİN başçılarının Cenevrə görüşü ərəfəsində Paşinyan qondarma DQR-ə niyə getmişdi...

**Ermənistanın Baş naziri Nikol Paşinyan işğal altında olan Azərbaycan ərazilərinə səfər edib. Ermənistan mətbuatının verdiyi məlumata görə, N.Paşinyan Dağlıq Qarabağ separatçılarının rəhbəri Bako Saakyanla birlikdə hərbçilər üçün yeni xidməti mənzillərin açılışında iştirak edib.**



***Daşdəmir Əliyev:** "Bu cür hərəkətlərə sərt reaksiyanı görüşü təşkil edən həmsədrlər verməlidirlər"*

Maraqlıdır ki, Sarkisyanın bu səfəri Cenevrədə xarici işlər nazirlərinin görüşü ərəfəsinə təsadüf edir. Ermənistan bu taktikadan çox istifadə edir. Adətən mühüm görüşlər ərəfəsində ya cəbhədə atəşkəsi pozur, ya da Ermənistan rəhbərliyi qondarma qurumun nəzarəti altında olan ərazilərə səfər edib, orada cəmiyyəti qıcıqlandıran bəyanatlar verir. Bu taktika nəyə hesablana bilər?

Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun səbəbləri aydındır: "Elə məhz həmin görüşün ərəfəsində Paşinyan özündən əvvəlki Ermənistan rəhbərliyinin nisbətən konstruktiv mövqeyini kəskin tənqid etdi. Sonra Qarabağa səfər etdi. Bütün bunlar beynəlxalq aləmə verilən mesajlardır. Paşinyan bununla demək istəyir ki, hər hansı bir konstruktiv mövqeni ondan gözləməyə dəyməz. Buna görə də bütün diqqəti danışıqlardan çox separatçı quruma yönəltmək istəyirlər. Biz belə halları Azərbaycanda keçirilən mühüm beynəlxalq tədbirlər ərəfəsində də müşahidə edirik. Bununla ermənilər həm də Azərbaycanın stabil ölkə olmadığı ilə bağlı fon yaratmaq istəyirlər. Mühüm görüşlər ərəfəsində Paşinyanın etdiyi səfərlərin bir mənası da var. Bununla açıq demək istəyirlər ki, heç bir təzyiq onları yolundan döndərə bilməz. Bütün bunlardan nəticə çıxararaq demək olar ki, Azərbaycan Ordusunun öz sözünü deməsinin vaxtı yetişib. Biz hərbi qüdrətimizlə öz ərazi bütövlüyümüzü bərpa etməyə hazırıq. Paşinyan budəfəki səfərində Dağlıq Qarabağdakı separatçı hərbçilərə tikilmiş evlərin təqdimat mərasimində iştirak etdi. Bunun özü beynəlxalq aləmə meydan oxumaqdır. Bir tərəfdən danışığa gedir, digər tərəfdən isə başqa bir ölkənin ərazisindəki separatçılara mənzil paylayır. Ümidvaram ki, tez bir zamanda bu məsələ həllini tapacaq. Biz torpaqlarımızı azad etməyin yolunu gözəl bilirik".

Ekspertin sözlərinə görə, bu cür hərəkətlərə sərt reaksiyanı görüşü təşkil edən həmsədrlər verməlidirlər: "Təəssüf ki, biz onlardan belə bir mövqeni görə bilmirik. Onlar bununla həm də öz missiyalarına olan inamı azaldırlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan əleyhinə yeni siyasi partiyanın anonsu həbsxanadan gəldi

**"Qarabağ klanı" ilə Nikol Paşinyan iqtidarı arasında qarşıdurma yenidən özünün gərgin mərhələsinə daxil olmaqdadır. Belə görünür ki, "Qarabağ klanı" hakimiyyətin inzibati resurslar vasitəsilə onu sıradan çıxarmasına qarşı daha aktiv müqavimət göstərməyi planlaşdırır.**



Bunun ilkin anonsları artıq Ermənistanın eksprezidenti Robert Köçəryan tərəfindən verilib.

Hakimiyyətə qarşı hərəkata rəhbərlik etdiyini bildirən Köçəryan qeyd edir: "Hakimiyyətin fəaliyyəti məni siyasətə qaytardı. Hakimiyyət həbsdə saxlamaqla məni özlərinin qabiliyyətsiz siyasətinə qarşı hərəkatın simvoluna çevirdi. Qarabağ hərəkatı başlayanda mən möcüzə nəticəsində Azərbaycan həbsxanasından qaça bildim. Taleyin ironiyası odur ki, məni azadlıqdan məhrum etməklə hakimiyyət azərbaycanlıların edə bilmədiyini etdi". Həbsxanadan siyasi mübarizəyə başlayacağını bildirən Köçəryan "ölkənin azad olunması"nda vacib rol oynayacağını deyib.

Köçəryan tərəfdarlarının onun azad edilməsi uğrunda mübarizəni siyasi hərəkata çevirə biləcəklərini istisna etməyib:"Şübhəsiz ki, bu mümkündür". Onun sözlərinə görə, tarixdə həbsxanadan ilham alan siyasi mübarizənin bir çox uğurlu nümunələri var. Köçəryan həmçinin bildirib ki, Ermənistanda 2020-ci ildə siyasi landşaftın formalaşması başa çatacaq, bu da fəal vətəndaşları birləşdirəcək yeni siyasi gündəmin formalaşdırılmasına gətirib çıxaracaq. Onun sözlərinə görə, Ermənistanda növbədənkənar parlament seçkilərinin keçirilməsi siyasi proseslərin intensivliyindən, vətəndaşların iştirak səviyyəsindən, parlamentdəki hakim fraksiyanın sabitliyindən və hakimiyyətin səhvlərindən asılı olacaq. Xatırladaq ki, Köçəryan 2008-ci ilin mart hadisəsində konstitusiya quruluşunu devirməkdə ittiham edildikdən sonra 2018-ci ilin iyulunda həbs edilib.

Bu arada Ermənistanın sabiq prezidenti Serj Sarkisyan haqqında da cinayət işi məhkəməyə göndərilib. Xatırladaq ki, Serj Sarkisyan bir milyon dollardan çox dövlət vəsaitinin oğurlanmasının təşkilində ittiham olunur. Onunla birlikdə sabiq kənd təsərrüfatı nazirinin müavini Samvel Qalstyan, nazirliyin bitkiçilik idarəsinin rəisi Gevorq Arutyunyan və "Fleş" şirkətinin sahibi Barseq Beqlaryana da ittiham irəli sürülüb. Ötən il dekabrın ortalarında Sarkisyanın əmlakı üzərinə həbs qoyulub. İstintaqın versiyasına görə, sui-istifadə kəndlilərə dizel yanacağının münasib qiymətlərlə satılması üzrə hökumət proqramı çərçivəsində baş verib. Cinayət işinin materiallarına əsasən, Sarkisyan tabeliyindəki şəxslərə dizel yanacağının tədarükçüsü qismində "Fleş" kompaniyasını seçməyi tapşırıb. Halbuki, digər şirkət - "Masxur" kompaniyası daha ucuz qiymət təklif etmişdi. Müstəntiqlər hesab edirlər ki, sabiq prezident tamah məqsədilə sövdələşmədən özü üçün maksimum mənfəət götürmək niyyəti güdüb. Belə vəziyyətdə Sarksiyanın da həbsi qaçılmaz sayılır. Amma yuxarıda qeyd olunduğu kimi, "Qarabağ klanı" yaranmış durumda daha aktik müqavimətə hazırlaşır. Ermənistanın "168" nəşri yazır ki, klan ölkədə yaranan ağır sosial-iqtisadi durumdan istifadə edərək insanları yenidən küçələrə çıxarmaq istəyir:"Əslində hökumətin hərəkətləri məhz bu cür hərəkatlar doğurur. Bir vaxtlar Paşinyan hökumətin atdığı addımlardan danışarkən bunun real gündəmdən, Qarabağ məsələsindən diqqəti yayındırmaq cəhdi olduğu deyilsə də, artıq bu reallıqdan uzaqdır. Paşinyan hökuməti gənclər üçün doğum evləri, kəndlilər üçün kəsmə yerləri, sürücülər və xüsusilə taksi sürücüləri üçün bal sistemləri olmaqla ən sadiq qrupları hədəf alaraq qəsdən populyar olmayan, məntiqi qərarlar qəbul edən kimi görünür. Sanki Paşinyanın "exit-strategy" həyata keçirdiyi təəssüratı var. Paşinyanın 1 milyon dollarlıq təmirli yeni evindən, yarım milyonluq yeni "Mercedes"lərdən və həyatın digər zövqlərindən imtina etməməsi ona kəskin antipatiya yaradır. Bu vəziyyətdən Paşinyanın rəqibləri artıq istfiadə etməyi düşünür. İndiki mərhələdə digər səbəblər barədə yalnız fərziyyə edə bilərik - bu, Qarabağ münaqişəsindəki fəlakət perspektivi qorxusu, bir ölkəni idarə edə bilməyəcəyinin açıq şəkildə ortaya çıxması, komandasından məyus olması və ya başqa bir problem ola bilər, ancaq Paşinyanın son vaxtlarda açıq şəkildə antixalq və münaqişə yaradan bir siyasət yürütdüyü aşkardır". O da qeyd olunur ki, Paşinyanın hakimiyyətə gəlməsində əsas arqument və vasitə olan erməni xalqı siyasətdən kənarlaşdırılıb:

"Eyni zamanda, Paşinyan hökumətinin ölkədə antihökumət hərəkatlarını qızışdırmağa çalışdığı kimi bir təəssürat yaradılır. Bu yaxınlarda Paşinyanın qəzetində hakimiyyət dəyişikliyinin bir neçə ssenarisini əks etdirən analiz dərc olunub. Bunlar təsadüfi deyil və Paşinyan özü də ona qarşı ölkədə yeni hərəkata rəvac verilə biləcəyini görür".

İndiki halda belə əqüvvə qismində "Qarabağ klanı"nın ön plana çıxması da xüsusi vurğulanır və bu durumda klanla Paşinyan arasında ziddiyyətin daha da kəskinləşəcəyi proqnozlaşdırılır.

***Tahir TAĞIYEV***

# AŞPA-nın Azərbaycan "tükünü tirə" çevirməsi - halbuki, son iki ildə Fransada 90, Almaniyada 26 jurnalist zorakılığa məruz qaldı

*Azər Həsrət: "Fransa, Almaniya kimi ölkələrdə jurnalistlərə qarşı kütləvi xarakter alan zorakılıq hallarına AŞPA kimi beynəlxalq qurumların gec reaksiya verməsi səbəbsiz deyil"*

**Jurnalistlər dünyanın istənilən nöqtəsində öz peşə vəzifələrini həyata keçirmək hüququna malik olsalar da, bir sıra hallarda onlara qarşı müxtəlif növ zorakılıq halları baş verir. Bu neqativ hallar son illər özünü "demokratiya" deyib bağıran bəzi Avropa ölkələrində daha çox göstərir.**

Avropa Şurası Parlament Assambleyası (AŞPA) mətbuat azadlığı və Avropada jurnalistlərin təhlükəsizliyinə həsr olunmuş hesabat qəbul edib və həmin hesabatda bəzi Avropa ölkələrində jurnalistlərə qarşı həyata keçirilən zorakılıq halları rəqəmlərlə ifadə olunub.

"Report"un Fransa bürosu xəbər verir ki, hesabatda Avropa Şurasına üzv ölkələrdə jurnalistlərin öz peşə vəzifələrini həyata keçirdikləri zaman fiziki və verbal zorakılıq, polislər tərəfindən müdaxilə, akkreditələrinin əllərindən alınması kimi halların artdığı bildirilir.

Hesabata əsasən, Fransada 17 noyabr 2018-ci ildə "sarı jiletlilər"in etiraz aksiyaları başlayandan etibarən jurnalistlərə qarşı təhqir və təhdidlərin sayı artıb. Həmin tarixdən etibarən aksiyaları işıqlandıran 90 jurnalist polis zorakılığına məruz qalıb.

Almaniyada 2018-ci ildə 26 jurnalistə qarşı fərdi şəxslər tərəfindən zorakılıq olub. 7-8 iyul 2017-ci ildə Almaniyanın Hamburq şəhərində keçirilən G-20 toplantısı zamanı ən azı 32 jurnalistin əlindən akkreditə hüquqları alınıb. 2018-ci ilin avqust ayında Almaniyanın ZDF kanalının jurnalist heyəti polislər tərəfindən saxlanıb. Niderlandda 24 oktyabr 2019-cu ildə NOS TV-nin jurnalisti suallara cavab verməkdən imtina etdiyi üçün həbs olunub. Dövlət orqanları, polislər və mülki şəxslərin jurnalistlərə qarşı zorakılıq tətbiq etdikləri ölkələr arasında Malta, Avstriya, Bolqarıstan, İtaliya və digər ölkələr də var. AŞPA üzv dövlətləri jurnalistlərin təhlükəsizliyini təmin etməyə çağırıb.



Bütün bu halların yüzdə biri Azərbaycanda baş versəydi, AŞPA dayanmadan bəyanatlar verər, bunu bütün hesabatlara salardı, amma Avropada baş verdiyi üçün ona 2 ildən sonra münasibət bildirir.

Siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, bu həmin beynəlxalq qurumun və digər o cür təsisatların bu kimi məsələlərə ikili standartlarla yanaşmasından irəli gəlir. Onların jurnalistlərə qarşı Avropa ölkələrində baş verən zorakılıq hadisələrinə gec reaksiya verməlrinin də bundan doğduğunu deyən A.Həsrətin sözlərinə görə, Azərbaycan həmişə jurnalistlərə qarşı istənilən zorakılıq hallarını pisləyir: "Dünyanın istənilən yerində jurnalistlərə qarşı, xarakterindən asılı olmayaraq, bütün zorakılıq hallarını pisləyirik. İstənilən ölkədə hansısa jurnalistə qarşı bu cür zorakılıqlar olanda biz buna öz etirazımızı bildiririk və bu halı qınayırıq. Amma çox təəssüf ki, beynəlxalq insan haqları təşkilatları və beynəlxalq jurnalist qurumları bu kimi məsələlərdə bütün dövlətlərə eyni gözlə baxmırlar, fərqli yanaşırlar. Məsələn, Azərbaycanda kiçik bir problem baş verərsə, bütün beynəlxalq insan haqları təşkilatları və jurnalist qurumları ayağa qalxır və ölkəmizi müxtəlif məsələlərdə ittiham edirlər. Bu qurumlar əsassız olaraq "Azərbaycanda insan haqları pozulur, jurnalistlərə təzyiq edilir, mətbuat azadlığı tapdalanır və s." deyə bağıraraq az qala bütün dünyanı ayağa qaldırırlar. Fransa, Almaniya, yaxud buna bənzər digər Avropa ölkələrində bir sıra hallarda onlarla jurnalist peşə vəzifəsini yerinə yetirərkən zorakılıq hallarına məruz qalır, amma həmin təşkilatlar tərəfindən isə heç bir bəyanat verilmir, hətta kiçik bir münasibət belə bildirilmir. AŞPA kimi qurumlar Avropa ölkələrində öz peşə vəzifələrini yerinə yetirərkən zorakılığa məruz qalan jurnalistlərin yaşantılarını susqunluqla müşahidə edirlər. Bu da, istər-istəməz, bizdə təəccüb və qəzəb doğurur. Dəfələrlə beynəlxalq tribunalardan həmin qurumların təmsilçilərinə sual vermişəm ki, necə olur Avropanın göbəyində jurnalistlərə qarşı zorakılıqlar baş verir, amma buna reaksiya vermirsiniz, susursunuz, amma Azərbaycanda təsadüfən bir hadisə baş verdikdə isə ittihamlar irəli sürürsünüz. Onlar bir qayda olaraq deyirlər ki, başqa ölkələr "demokratik" ölkələrdir, amma Azərbaycan demokratik deyil. Deyirəm ki, o ölkələr necə demokratik ola bilər ki? Bir ölkədə ki, jurnalistlər kütləvi olaraq zorakılığa məruz qalırsa, onda hansı demokratiyadan danışmaq olar?

Bu suala isə cavab vermirlər. Yəni Avropa ölkələrində baş verənlərə göz yuman beynəlxalq təşkilatlar bizim ölkəyə ikili standartlarla yanaşır, ayrıseçkilik edirlər. Fransa, Almaniya kimi ölkələrdə jurnalistlərə qarşı kütləvi xarakter alan zorakılıq hallarına AŞPA kimi beynəlxalq qurumların gec reaksiya verməsi səbəbsiz deyil"

**Fransa kimi ölkələrdə yüzlərlə jurnalist və vətəndaşın döyülməsinə, zorakılığa məruz qalmasına göz yuman həmin qurumların bu münasibətinin ölkələr arasında ayrıseçkiliyə yol verilməsinin təzahürü olduğunu deyən A.Həsrət hesab edir ki, bunun qarşısının alınması üçün həmin beynəlxalq təşkilatlarla işləməyi bacaran insanlara meydan vermək lazımdır. Bu təşkilatlarla işləmək təcrübəsinə malik olduğunu deyən A.Həsrətin sözlərinə görə, o qurumlarla işləmək lazımdır, nəinki meydanı boş buraxmaq. O deyir ki, meydanı boş görənlər Azərbaycan əleyhinə müxtəlif yanlış, qərəzli qərarların qəbul edilməsinə nail olurlar.**

*İradə SARIYEVA*

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla onun erməni həmkarı Zöhrab Mnatsakanyan arasında məlum görüşdən sonra hadisələrin hansı istiqamətdə inkişaf edəcəyi xüsusi maraq doğurur.**

# Cenevrə görüşü ərəfəsində Paşinyanın bəyanatları onu Rusiya və MQ qarşısında rüsvay etdi...

Qeyd edək ki, görüşlə bağlı artıq ilkin məlumatlar yayılıb. Azərbaycan XİN-in Mətbuat Xidməti İdarəsinin rəisi Leyla Abdullayevanın sözlərinə görə, görüş 7 saat davam edib: "Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vasitəçiliyilə bu ilin 29 yanvar tarixində Cenevrədə keçirilən görüşü 7 saat davam edib. Ümumilikdə tərəflər, eləcə də ATƏT-in Minsk Qrupunun həmsədrləri danışıqların intensivləşdirilməsinin və danışıqlar gündəliyindəki bütün məsələlər üzrə konkret nəticələrin əldə olunması mövqeyindən çıxış edirlər".

Beləliklə, XİN başçıları Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələlərini müzakirə ediblər. Amma ötən il ərzində də çoxsaylı belə müzakirələr aparılıb. Buna rəğmən, məsələnin dinc müstəvidə həlli istiqamətində hansısa addım atmaq mümkün olmayıb. Təbii ki, hadisələrin bu səpkidə inkişafını şərtləndirən başlıca amil də Ermənistanın qeyri-konstruktiv mövqeyidir. İndi cari il ərzində Ermənistanın mövqe dəyişikliyinə gedib-getməyəcəyi də xüsusi maraq doğurur. Rusiyanın "Nezavisimaya qazeta" nəşrinin yazdığına görə, hazırda danışıqlar masasında, əvvəlki kimi, "Madrid prinsipləri" adı ilə məşhur olan nizamasalma planı durur: "Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı danışıqlar, həmişə olduğu kimi, yüksək məxfilik rejimində aparılır. Nazirlərin dəqiq nə söylədikləri və nəyin müzakirə edildiyi məlum deyil. Duman danışıqlardan sonra belə dağılmır - danışıq aparanlar ümumi sözlər və qeyri-müəyyən qiymətləndirmələrlə keçinirlər". Amma erməni tərəfinin iddiasına görə, əslində




Azərbaycan qətiyyətli mövqe nümayiş etdirir və İrəvan daha çox müdafiə mövqeyindədir. Ermənistan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov bu xüsusda bildirir: "Paşinyanın hakimiyyəti dövründə ATƏT Minsk Qrupu həmsədrləri Ermənistana sillə vuran bəyanat yayırlar, Lavrov Valday forumunda Ermənistanı qeyri-konstruktivlikdə günahlandırır, Paşinyan isə öz cəmiyyəti, siyasi tərəfdaşları ilə dialoqa gedə bilməyərək Azərbaycan xalqını dialoqa çağırır. Digər tərəfdən onun mövqeyi Rusiyanı da narazı salır. Xüsusən də Qafanda səsləndirdiyi fikirlər Rusiyanı daha çox Azərbaycanın yanına itələyir".

Qeyd edək ki, Qafanda mətbuat konfransı zamanı Paşinyana 2016-cı ildə aprel döyüşlərinin Rusiyanın razılığı ilə baş verməsi ilə bağlı bəyanatına dair sual verilib. Paşinyan cavab olaraq qeyd edib ki, 2016-cı ildə verdiyi bəyanatlar indi də "Facebook" səhifəsindədir. Paşinyanın sözlərinə görə, erməni cəmiyyətini narahat edən məsələləri rus həmkarları ilə müzakirə edib. Rus siyasi analitik Qriqori Trofimçuk məsələyə belə yanaşmanın Rusiyanı narazı saldığını vurğulayır: "Paşinyanın əvvəlkilərə bənzər şəkildə iddia etdiyi kimi, bu müharibə Rusiya tərəfindən təhrik edilməyib. Paşinyan o zaman hakimiyyət başında deyildi, Sarkisyana qarşı isə rus tərəfinin heç nəyi yox idi, elə deyil?". Trofimçuk qeyd edib ki, Paşinyan hakimiyyətə gəlməzdən əvvəl verdiyi bəyanatlarından indi də imtina etmədiyi barədə birbaşa formada danışır:

"Paşinyanın əvvəlkilərə bənzər şəkildə iddia etdiyi kimi, bu müharibə Rusiya tərəfindən təhrik edilməyib. Paşinyan o zaman hakimiyyət başında deyildi, belə bir şeyə icazə vermək, yumşaq desək, hadisələrin qəribə inkişafı üçün isə rus tərəfinin Sarkisyana qarşı heç nəyi yox idi. Paşinyanın Qafanda verdiyi bəyanat birbaşa təxribat kimi görünür. Moskva hər hansı qaydada onu nəzərə almalıdır". Elə erməni politoloq Ruben Mehrabyan da məsələyə bu prizmadan yanaşır. Onun sözlərinə görə, Paşinyan aprel döyüşlərindən dərhal sonra olduğu fikirdə bu günə qədər qalmaqda davam edir:"Və həyat göstərir ki, bu fikri dəyişmək üçün hər hansı əsas yoxdur". O qeyd edib ki, Ermənistan, Cənubi Qafqaz istiqamətində siyasət Rusiyanın ümumi siyasətinin yalnız bir hissəsidir: "Rusiya siyasəti müvəqqəti dəyişikliklərə məruz qala bilər, lakin Rusiya rəhbərliyinin təsəvvürləri dəyişmədiyi müddətcə, rus siyasətinin dəyişdiyini düşünməyə əsas yoxdur. Rus siyasəti bu və ya digər hallara uğunlaşa bilər, lakin ən azından onun strategiyasında, təməlində və dərinliyində dəyişiklik ola bilməz. Sadəcə, Paşinyanın mövqeyi üzündən Rusiya Azərbaycanla daha çox yaxınlaşır. Aydındır ki, bu da Qarabağ danışıqlarına təsir edir".

Digər tərəfdən artıq məlumdur ki, Qafanda keçirilən mətbuat konfransında Nikol Paşinyanın Qarabağla bağlı danışıqlar prosesi barədə səsləndirdiyi yanaşma və mətbuatdan gətirdiyi sitatlar ATƏT-in Minsk Qrupu həmsədrləri arasında da ciddi narahatlıq yaradıb. Erməni mediası yazır ki, onlar bu hərəkəti Minsk Qrupu daxilində ideologiyaya zidd olan Paşinyanın növbəti özfəaliyyət davranış tərzi nümayiş etdirməsi cəhdi kimi qəbul ediblər.

Məlumata görə, həmsədrlər Cenevrədə Mnatsakanyanla Paşinyanın Qarabağa dair ifadələri ilə bağlı olduqca sərt bir söhbət aparıblar. Belə vəziyyət həm də Qarabağ məsələsində Azərbaycanın mövqeyini daha da gücləndirən hal kimi qəbul olunur.

***Tahir TAĞIYEV***

# Ermənistanın hələ ötən əsrdən başlatdığı "Erabuni 2800" blefinin beynəlxalq iflası...

## *Qasım Hacıyev: "Mikoyan və digər erməni başbilənlərinin rəvac verdiyi bu saxtakarlığın üstü açıldı"*

**Ermənilərin (hayların) Cənubi Qafqaza, əsasən də Azərbaycan torpaqlarına köçürülməsi özü ilə bölgəyə çoxlu problem, ağrı-acılar, soyqırımlar, deportasiyalar gətirdi. Ata-baba torpaqlarımızda ayağına yer edən haylar burada yerli əhaliyə, aborigen xalqa və onun mədəniyyətinə, sözün həqiqi mənasında, yağı kəsildilər.**

İndiki Ermənistan ərazisində özlərinə dövlət quran ermənilər son yüz ildə Qərbi Azərbaycan torpaqlarında tarixi saxtalaşdırma işləri həyata keçirməyə başladılar.

Hazırda Ermənistanın paytaxtı olan tarixi Azərbaycan şəhəri İrəvanın tarixinin saxtalaşdırılması istiqamətində ermənilər hələ keçən əsrin 10-cu, 20-30-cu illərindən hərəkətə keçiblər. Onlar İrəvana "Erabuni" adı qoyaraq bu orta əsr türk şəhərini "qədim erməni şəhəri" kimi qələmə verməkdə davam ediblər. Təəssüf ki, ötən əsrin əvvəlində başlanan, ortalarında isə daha güclü vüsət alan bu mənfur prosesin başlanmasında əsas səbəb erməni ideoloqlarının İrəvanı "Erabuni" adlı "qədim erməni şəhəri" kimi UNESCO-ya daxil etmək idi. Heç şübhəsiz ki, İrəvan şəhərinin yerləşdiyi ərazinin yaxnlığındakı təpədən guya buranın "Erabuni" olmasına dair üzəri mixi yazısı ilə yazılmış "qədim daş" "aşkarlandığı" keçən əsrin 40-50-ci illərində bütün SSRİ-yə car çəkməkdə onların məqsədi tarixi şəhərimizə sahiblənmək idi.

SSRİ-də yaşayan, müxtəlif vəzifələrdə təmsil olunan erməni alimləri, eləcə də Mərkəzi Komitədə işləyən, müxtəlif vəzifələr tutan mikoyanlar, onun kimi başqa yanlar bu prosesə ciddi dəstək verirdilər. Azərbaycan torpaqlarının qarış-qarış ermənilərə "mal edilməsi" siyasətinin başında duran erməni ideoloqları burada "yerli olduqlarını" sübut etmək üçün xaricdəki erməni diasporundan güclü dəstək alırdılar. Xüsusilə Fransa və Los-Ancelesdə yerləşən erməni diasporları ermənilərin Azərbaycan torpaqlarında yerləşməsi, bu torpaqlara sahiblənməsi və özlərini bu torpaqların "əsl sakinləri" hesab etmələri üçün çox böyük işlər görürdülər.

İrəvanın ermənilərə verilməsi təxminən 100 il bundan əvvəl baş verib, amma ermənilər İrəvanı özlərinin az qala "3 min il yaşı olan qədim şəhərləri" kimi dünyaya təqdim edirlər.



*"Ermənilərin "Erabuni" oyunu heç zaman beynəlxalq aləmdən dəstək ala bilmədi"*

Xaricdəki erməni diasporu İrəvan yaxınlığında "tapılan Erabuni şəhəri"nə aid "qalıqların" və "daşın" ermənilərin bu torpağın "qədim sakinləri" olmasını "sübut" etdiyini əsas gətirərək, Mikoyanın və erməni alimlərinin köməkliyilə İrəvanın tarixinə dair saxta sənədlər hazırlayaraq onu UNESCO-ya təqdim etməyə cəhdlər etdilər.

İkinci Dünya Müharibəsindən sonra, 1945-ci ilin noyabrında yaradılan Birləşmiş Millətlər Təşkilatının (BMT) Elm, Təhsil və Mədəniyyət üzrə qurumunun (UNESCO-nun) yaradılması, özü də mərkəzi qərargahının Parisdə yerləşməsi erməni diasporunun əlinə fürsət verdi ki, onlar "Erabuni"ni, yəni İrəvanın UNESCO-nun siyasəsinə daxil edilməsi məsələsini qaldırsınlar. Bununla bağlı UNESCO-ya müraciətlər edilir və UNESCO-nun ekspertləri "Erabuni şəhəri"ndən tapılan "daşı" analiz edir və o daşın özünün qədim olduğunu, lakin üzərindəki yazıların yeni yazıldığını, saxta olduğunu aşkar edərək "Erabuni"ni qeydiyyata almaqdan imtina edirlər. Hələ 50-60 il əvvəl UNESCO ermənilərin saxtakar əməllərini meydana çıxarıb və İrəvan şəhərinin qədim deyil, orta əsr şəhəri olduğunu sübut edib. UNESCO-nu öz yalanlarına inandıra bilməyən ermənilər və onların havadarları uzun illər "Erabuni"ni UNESCO-ya daxil etmək üçün dəridən-qabıqdan çıxıblar, amma buna müvəffəq olmayıblar.

1968-ci ildə Mikoyanın köməkliyilə "İrəvanın 2750 illiyi"ni keçirməyə müvəffəq olan ermənilərin dişində şirə qalıb. İndi də "İrəvanın 2800" illiyini keçirmək üçün hər vasitəyə əl atıblar, onlar "yubileyi" qeyd ediblər. Bu yubileyi qeyd etməkdə də yenə də əsas məqsəd İrəvanı "qədim erməni şəhəri" olaraq UNESCO-ya daxil etməkdir. Bu səbəbdən də vaxtilə Azərbaycanın müxtəlif yerlərindən, o cümlədən də indiki Ermənistan adlandırılan Azərbaycan ərazilərindən oğurlayıb İrəvana yığdıqları abidələri, qədim daş təsvirlərini, xaçqarları, eləcə də digər nümunələri "Erabuni ərazisindən tapılan maddi nümunələr" kimi dünyaya təqdim etməkdədirlər. Əslində isə bu maddi nümunələr başqa-başqa yerlərdən oğurlanıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev bizimlə söhbətində bildirdi ki, ermənilərin "Erabuni" oyunu hələ keçən əsrin ortalarından iflasa uğrayıb. Onun sözlərinə görə, ermənilər keçmişdə SSRİ rəhbərliyini öz yalanlarına alət etməyi bacarsalar da, beynəlxalq elm, təhsil, mədəniyyət qurumu olan UNESCO-nu öz torlarına sala bilməyiblər: "Siz də yaxşı bilirsiniz ki, "Erabuni" deyilən bir şəhər olmayıb, o şəhər erməni alimləri tərəfindən "ixtira" olunub. İrəvan şəhərinin tarixi də hər kəsə məlumdur. İrəvan türk-müsəlman şəhəridir. Çox təəssüf ki, belə gözəl bir şəhərimiz, onun tarixi erməni saxtakarlığına məruz qalıb. Ermənilər İrəvanın tarixini saxtalaşdırmaqla özlərini, öz əməllərini ifşa etmiş oldular. Ermənilərin "Erabuni" oyunu heç zaman beynəlxalq aləmdən dəstək ala bilmədi. Mikoyan və digər erməni başbilənlərinin, erməni alimlərinin, erməni diasporunun rəvac verdiyi bu saxtakarlığın üstü açıldı. Ermənilərin "Erabuni" oyununu UNESCO hələ keçən əsrin ortalarında pozub, ona görə də onun bu quruma daxil edilməsi mümkünsüzdür.

**Bu gün Bakı və Şəki müxtəlif nominasiyalar üzrə UNESCO-ya daxil edilib, bu elə-belə baş verməyib. Şəhərlərimiz bütün göstəricilərinə görə bu quruma seçilib. Vaxtilə Mikoyanın təsiri ilə keçmiş SSRİ rəhbərliyini öz oyunlarına alət edib İrəvanın saxta 2750 illiyinin keçirilməsinə nail olsalar da, onu UNESCO-ya daxil edə bilmədilər. Bu gün də məqsəd İrəvanı "Erabuni" adlandırıb onu Romadan da qədim şəhər kimi UNESCO-ya daxil etməkdir, amma onların bu arzusu da reallaşmayacaq" - deyə Q.Hacıyev qeyd etdi.**

***İradə SARIYEVA***

**Son günlərdə ABŞ Prezidenti Donald Tramp yenidən dolların güclü olmasından şikayətlənməyə başlayıb. O, Federal Ehtiyat Sisteminin Açıq Bazar Əməliyyatları Komitəsinin iclası fonunda qurumu uçot dərəcəsini azaltmağa çağırıb.**

# Dolların manata ikiqat təzyiqi gözlənir - manatın bahalaşmasının yeni dalğasının qarşısını necə almalı...




***Fuad İbrahimov:** "Böyük vəsaitlərin ölkəyə daxil olması və uçot dərəcəsinin aşağı salınması manatın məzənnəsinin möhkəmlənməsi üçün ciddi təhlükə deyil"*

Bundan başqa, Tramp yerli telekanallardan birinə müsahibəsində dolların güclü olmasından şikayətlənib. O qeyd edib ki, faizlər daha da aşağı salınmalıdır: "Dolların güclü olmasını istəyirəm, dolların çox güclü olmasını istəyirəm. Dolların müdhiş olmasını istəyirəm. Ancaq faizləri salsanız, çox-çox yaxşı olacaq".

Nəzərə almaq lazımdır ki, ötən il FES uçot dərəcəsini 3 dəfə endirib. Özü də bunlar Trampın təzyiqi ilə baş verib. İndi də bu təzyiq nəticəsində bənzər durumun yaranması istisna olunmur.

Bu arada bəzi ekspertlər hesab edirlər ki, belə vəziyyətdə Azərbaycan manatı üzərində də təzyiqlər artacaq. Onlar bunu onunla əlaqələndirirlər ki, buna neft gəlirlərindən tutmuş, ölkənin ixracının artması, turizm və digər sektorlar üzrə valyuta daxilolmalarının çoxalmasına kimi çoxsaylı amil təsir edir. Eləcə də dolların uçot dərəcəsinin azalması kimi faktorlar da bu prosesə ciddi təsir edir. Ona görə də ABŞ yenidən uçot dərəcələrini endirmək istiqamətində addımlar atsa, dollar dünya bazarında, eləcə də Azərbaycanda əhəmiyyətli dərəcədə ucuzlaşa bilər.

Belə fikirlər var ki, manata yönələn təzyiqlərin qarşısını almaq mümkün olmayacaq. Çünki həm neftin gəlirlərinin artması, həm də uçot dərəcəsinin aşağı salınması manata ikiqat təzyiqləri artıracaq.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, uçot dərəcəsinin aşağı salınması manata deyildiyi kimi güclü təzyiq göstərməyəcək: "Ona görə də bu ehtimallarla razılaşmıram. Çünki manat üzən məzənnə siyasətindən kənardadır. Manatın məzənnəsi daha çox administrativ formada tənzimlənir. Digər tərəfdən, iqtisadi göstəricilərimiz buna imkan vermir. Çünki, ən azından, ötən il bizim idxal-ixrac əməliyyatlarında 6 milyard dollarlıq müsbət saldomuz var. Başqa bir tərəfdən, valyuta ehtiyatlarımız 51 milyard dollara çatıb. Bu da müstəqillik dövründə ən yüksək rəqəmdir. Bundan əvvəl FES uçot dərəcəsini bir neçə dəfə aşağı salıb, amma bu, manata təsir edə bilməyib. Böyük vəsaitlərin ölkəyə daxil olması və uçot dərəcəsinin aşağı salınması manatın məzənnəsinin möhkəmlənməsi üçün ciddi təhlükə deyil. Çünki Mərkəzi Bank məzənnə ilə bağlı prosesləri tənzimləyir. Ona görə də bununla bağlı narahatlığa əsas yoxdur.

*"Manatın məzənnəsi üçün o vaxt təhlükə yarana bilər ki..."*

Manatın məzənnəsi üçün o vaxt təhlükə yarana bilər ki, neft 25 dollara düşsün və belə vəziyyət bir neçə ay davam etsin.

**O zaman yeni devalvasiya baş verəcək. Ancaq gedən prosesləri nəzərə alsaq, əminliklə deyirəm ki, yaxın perspektivdə neftin qiyməti kəskin ucuzlaşmayacaq. Ona görə də ABŞ uçot dərəcəsini 2 dəfə də aşağı salsa, bunun manata təsiri olmayacaq".**

***Vidadi ORDAHALLI***

---

**Son günlər həkimlər ciddi ajiotaj yaradan koronavirusun ilkin əlamətləri olaraq soyuqdəymə, zökəm, qızdırma simptomlarını həyəcan təbili kimi qiymətləndirirlər. Azərbaycanda bu virusa yoluxma halları aşkarlanmayıb. Lakin həkimlərin sözlərinə görə, virusun ölkəmizə keçmə risqi də istisna edilmir.**

# Çindən Azərbaycana onlayn sifarişlə mal idxalı da dayandırıla bilər...




***Osman Gündüz:** "Onlayn alış-verişin müəyyən müddətə məhdudlaşdırılması ilə bağlı vətəndaşlara müraciət edilməlidir"*

Bu səbəbdən də Çindən ölkəmizə hər hansı bir formada nəyinsə gətirilməsi hazırkı şəraitdə məqbul sayılmır.

Çindən gələn hər bir məhsul xüsusi qaydada yoxlanılır. Lakin maraqlıdır, onlayn formada Çindən gətizdirilən hər hansı bir əşya necə yoxlanılır?

Nəzərə almaq lazımdır ki, son zamanlar onlayn alış-verişə daha çox üstünlük verilir. Digər ölkələrlə müqayisədə Çindən edilən onlayn alış-veriş daha ucuz olduğu üçün, vətəndaşlar məhz həmin ölkənin ticarət saytlarından nəsə sifariş verməyə üstünlük verirlər.

Ancaq o da məlumdur ki, son günlər Çində yayılan dəhşətli koronavirus nəticəsində həmin ölkədə karantin elan edilib. Bu xəstəlik nəticəsində Çində ölən insanların sayı günü-gündən artır. Açıqlanan son məlumatlara görə, Çində koronavirusa yoluxanların sayı 7711 nəfərə çatıb, virusdan ölənlərin sayı 170 nəfərdir.

Xəstəlik sürətlə qonşu ölkələrə də yayılır. Azərbaycana bu xəstəliyin keçməməsi üçün aidiyyəti qurumlar lazımi işlər görürlər. Lakin bununla yanaşı, Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzi koronavirus təhlükəsi ilə əlaqədar Çindən onlayn sifarişləri dayandırmağı məsləhət görüb. Mərkəzin direktor müavini Afaq Əliyeva media nümayəndələrinə açıqlamasında bildirib ki, Çində karantin tədbirləri həyata keçirilirsə, hər kəs özünü qorumaq üçün onlayn sifarişləri dayandırmalıdır: "Düzdür, həmin məhsullar gömrük məntəqələrində müayinədən keçirilir, yoxlanılır, amma yenə də alış-verişi, bütün əlaqələri məhdudlaşdırmaq olar.

*"Çindən onlayn yolla gələn mallar Gömrük Komitəsinin, "Azərpoçt"un daşıma şirkətinin prosedurundan keçməlidir"*

Çünki koronavirus haqqında Ümumdünya Səhiyyə Təşkilatının belə tam məlumatı yoxdur. Virus hələ öyrənilir. Ona görə bir qədər ehtiyatlı olmaq lazımdır".

Maraqlıdır, Çindən onlayn alış-verişi qadağan etmək olarmı? Olarsa, bu hansı formada olacaq?

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz bildirdi ki, Dövlət Gömrük Komitəsi, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyət bu məsələdə daha məsuliyyətli olmalıdırlar: "Çindən onlayn yolla gələn mallar Gömrük Komitəsinin, "Azərpoçt"un daşıma şirkətinin prosedurundan keçməlidir. "Azərpoçt"un mərkəzi daşıma məntəqəsi, gömrük qurumları var. Bu qurumların məsuliyyəti gücləndirilməlidir. Müəmmalı məhsullar ilk növbədə gömrüyə və poçta daxil olur. Ona görə də bu qurumlar ehtiyatlı olmaqla bağlı açıqlama verməlidirlər. Bu quruma daxil olan siyasi məqsədli malların skanerdən keçirilməsi, təhlükəsizlik tədbirləri ilə bağlı görülən işləri gücləndirməlidirlər".

Həmsöhbətimiz onu da vurğuladı ki, aidiyyəti qurumlar əhaliyə xəbərdarlıq edə, onlayn alış-verişin müəyyən müddətə məhdudlaşdırılması ilə bağlı vətəndaşlara müraciət edə bilər: "Məsuliyyət daşıyanlar həm özləri işlərini nizamlamalı, həm də belə açıqlamalar verməlidirlər".

***Günel CƏLİLOVA***

**Aqrar sektora yüksək diqqət fonunda əsas hədəflərdən biri də emal sənayesinin inkişaf etdirilməsidir. Çünki bu hal Azərbaycanda məşğulluq səviyyəsini artırmaqla yanaşı, əlavə dəyər göstəricilərini, ixrac həcmini də artırır. Hazırda bu xüsusda diqqət mərkəzində olan əsas sahələrdən biri də pambıqçılıqdır.**

# Pambıqçılıqda çatışmayan halqa - Azərbaycan hər il milyardlarla dollardan necə məhrum olur...

Aqrar sahənin ən mühüm istiqamətlərindən birinin pambıqçılıq olması ekspertlərə görə təsadüfi xarakter daşımır. Ən azından o baxımdan ki, bu sahə məşğulluğun təmin edilməsi, ixrac potensialının və fermerlərin gəlirlərinin artırılmasında vacib rol oynayır. Digər tərəfdən pambıqçılığa elmi yanaşma da artıq öz sözünü deyir. Məsələn, ötən ili pambıqçılıq sahəsində sürətli inkişaf ili hesab etmək olar. Çünki ötən il pambıq əkilən sahələr 32,5 min hektar azalsa da, məhsuldarlıq 2018-ci ilə nisbətən 61 min ton daha çox olub. Ötən il pambıqçılıqda hər hektardan orta məhsuldarlıq 29,5 sentner təşkil edib ki, bu da 2018-ci illə müqayisədə hektardan 11,9 sentner artım deməkdir. Keçən il ölkəmizdə 294 min ton pambıq istehsal olunub ki, bu da son illərin rekord göstəricisidir. Pambıqçılıq emal sənayesinə böyük təkan verir. Bu sahədə hazır məhsulun əldə olunması üçün qarşıda duran vəzifələrdən danışan Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə bildirir ki, toxuculuq sənayesinin əsas xammal bazasını təşkil edən pambıqçılığın istehsalında son illər ciddi inkişaf dinamikası var. Eyni zamanda, pambığın ilkin emalı da həyata keçirilir: "Lakin pambıq mahlıcından iplik emalı potensialımız mövcud tələbatın təxminən 30-40 faizi həcmindədir. Parça istehsalının isə mövcud xammal bazasına nisbətdə göstəriciləri daha aşağıdır".

F.Fikrətzadə qeyd edib ki, dəyər zənciri üzrə daha çox əlavə dəyərin yaradılmasına nail olmaq və daxili tələbatı yerli istehsal hesabına təmin etmək üçün iplik fabriklərinin və toxuculuq kombinatlarının tikilməsinin dəstəklənməsinə ehtiyac var: "Hazırda Kənd Təsərrüfatı Nazirliyi ilə İqtisadiyyat Nazirliyi pambıqçılığın klaster əsasda inkişafı üçün kompleks qiymətləndirmə aparır. Pambığın son məhsula, yəni ən azı parçaya çevrilməsi üçün klaster yanaşması da nəzərə alınmaqla əsaslandırma hazırlanır. Məqsəd odur ki, ölkəmizdə xam pambıqdan ən azı parça istehsal olunsun. Eynilə bu, yun istehsalı üzrə də keçərlidir. Ölkədə yun xammalı da istehsal olunur. Hazır yun xammalı əsasında xalça istehsalı var. Amma yun-iplik sənayesi, yəni klasterin bu aralıq mərhələsi inkişaf etməyib. Bununla bağlı qiymətləndirmə aparılır". Aqrar Tədqiqatlar Mərkəzinin direktoru bildirib ki, növbəti 5 il ərzində pambıqçılıq üzrə klasterlərin başa çatdırılması planlaşdırılır: "Bu imkan verəcək ki, bir neçə yüz milyon manat dəyərində qiymətləndirilən toxuculuq sənayesində olan xammalları klasterlərin yaradılması hesabına, ümumilikdə bir neçə milyard manatlıq emal məhsuluna çevirək. Beş il ərzində özəl sektorun bu sahəyə aktiv cəlb olunması, dövlət təşviqi mexanizmləri vasitəsilə pambıqçılıq üzrə bu klasterin formalaşması mümkündür".



Hesab edilir ki, özəl sektor pambıq məhsullarını hazırlanmasında daha yaxından iştirak etməlidir. Məlumdur ki, pambıqçılıq yüngül sənaye üçün xammaldır. Pambıqçılığın dirçəldilməsi yüngül sənayenin də inkişafına səbəb ola, həmçinin emal sektorunda da yeni iş yerlərinin yaradılması ilə nəticələnə bilər. Digər tərəfdənnəzəər almaq lazımdır ki, Azərbaycan göstərilən diqqət nəticəsində pambıq istehsalı həcminə görə yaxın illərdə dünyada ilk onluğa daxil ola bilər. Bel əvəziyyətdə yeni emal sahələrinin yaradılması xüsusi önəm kəsb edir. Özü də Azərbaycanda istehsal edilən pambıq həm ixrac, həm də də daxili tələbin ödənilməsi üçün istifadə oluna bilər ki, bu da ölkəyə valyutanın daxil olmasına şərait yaratmaqla, yerli istehsalı stimullaşdırmış olar. Amma faktdır ki, pambığın xammal formasında deyil, emal edilərək ixrac olunması daha məqsədəuyğundur. Bu, həm də iqtisadi diversifikasiya baxımından vacibdir. Belə vəziyyətdə ixrac məhsullarının sayı artır, iqtisadiyyat diversifikasiya olunur.

O da məlumdur ki, Azərbaycanda yüngül sənaye məhsullarına tələbat kifayət qədər yüksəkdir. Ölkə xaricdən, xüsusilə geyim və yüngül sənaye məhsullarını idxal edir. Məhz bu durumda pambıqçılığın həm də emaledici istiqamətdə formalaşması idxalın azalmasına gətirib çıxara bilər.

**Bununla bir sıra tələb olan məhsulları yerli istehsal hesabına ödəmək mümkün olarıd. Rəsmi statistikaya əsasən, illik yüngül sənaye məhsullarının idxalına 400 milyon dollardan çox vəsait xərclənirk. Amma pambıqçılıqla bağlı emal sektorunun inkişaf etdirilməsi həm idxaldan asılılığın aradan qaldırılmasına, həm yeni iş yerlərinin açılmasına, həm də valyutanın ölkə daxilində qalmasına şərait yaradar. Emal prosesinin bərpası eyni zamanda pambıqçılığın inkişaf etdirilməsinə, həm də yerli istehsalın artırılması hesabına idxaldan asılılığın azaldılmasına səbəb olacaq. Hər halda proseslərin məhz bu istiqaməctdə getməsində hökumət də olduqca maraqlıdır.**

***Ramil QULİYEV***

# Yüksək bank faizlərinin yaratdığı bahalaşma problemi - Azərbaycanda...

**Azərbaycanda kredit faizlərinin yüksək olması, həmçinin banklarda depozit və kredit faizləri arasındakı fərqin böyük olması hələ də aktuallığını qoruyan əsas mövzular sırasında yer alır. Araşdırmalar göstərir ki, kredit faizlərinin formalaşmasına bir neçə amil təsir edir.**




Bunlardan birincisi vəsaitin cəlb edilməsi mənbəyidir. Azərbaycan bankları üçün əsas maliyyə mənbəyi onların öhdəliklərinin təqribən dörddə üçünü təşkil edən depozitlərdir. Amma depozit faizləri aşağı olsa da, bankların təqdim etdiyi kredit faizləri yüksəkdir.

Düzdür, banklar bunu digər bir faktla izah etməyə çalışır. Onlar iddia edir ki, depozit faizlərindən əlavə xərclərlə üzləşirlər. Belə ki, filial, şöbə və bankomat şəbəkəsinin saxlanması, işçilərə əmək haqqının ödənilməsi, digər bu kimi istiqamətlərə xərclənən vəsaitlər üzündən banklar faizləri yüksək saxlamaq məcburiyyətində olduqlarını bildirir. Eləcə də problemli kreditlər üzündən banklar faizləri yüksək saxladıqlarını bəyan edirlər. Amma araşdırmalar onu da göstərir ki, istər problemli kreditlərin yaranma səbəbi, istərsə də faizlərin yüksək olmasının əsas günahkarı elə bankların özüdür. Onların indiki şəraitdə depozit faizləri ilə kredit faizləri arasında fərqi endirməsi mümkün sayılır və bu zaman banklar yenə mənfəətlə işləyə bilər. Amma banklar bunu etmir və bunun zərəri ümumi iqtisadiyyata da dəyir. Bunu Azərbaycan Sahibkarlar Konfederasiyasının üzvləri ilə Beynəlxalq Maliyyə Korporasiyası arasında keçirilən görüşdə sahibkarların səsləndirdiyi fikirlər də aydın göstərir. Burada iş adamları bildirib ki, məhsulların maya dəyərinin yüksək olması rəqabət qabiliyyətinə mənfi təsir göstərir. Məhsulların maya dəyərinin yüksək olmasının əsas səbəblərindən biri isə məhz bahalı kreditlərdir. Görüş zamanı sahibkarlar logistika qiymətlərinin də maya dəyərində xüsusi rolu olduğunu bildiriblər.

Yaranmış vəziyyətdə kreditlərin faizlərinin aşağı salınmasının, əslində məhsulların maya dəyərinin aşağı düşməsinə də təsir etməsi gözlənilən hal sayılır. Bunu Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Elşad Məmmədov "sputnik "portalına açıqlamasında da xüsusi vurğulayır. Ekspert bildirib ki, Azərbaycanda yüksək faizlə kreditlərin verilməsi məhsulların maya dəyərinin artmasının əsas səbəblərindən biridir: "İlk növbədə məhsulun maya dəyəri ona görə yüksəkdir ki, kreditlər çox yüksək faizlə reallaşdırılır. Bununla yanaşı, bitkiçilik sahəsində maya dəyəri yüksək deyil. Amma məhz dövriyyə, tədavül, ticarətlə bağlı olan seqmentlərdə problemlər yaranır. Son nəticədə pərakəndə və istehlak bazarında qiymətlər yüksək olur. Yəni burada problem tənzimləmə ilə bağlıdır. Hökumətin iqtisadi bloku bu istiqamətdə tənzimləmə siyasətini və bazarın idarəedilməsi prosesini daha effektiv şəkildə reallaşdırmalıdır. Kreditləşmə yumşalmasa, tədavül xərcləri ilə bağlı inhisarçılıq aradan qalxmasa, bazarda qiymətin yüksək olması və inflyasiya meylləri davam edəcək. Maya dəyərinin aşağı olması üçün ilk növbədə kreditlərin faizləri kəskin şəkildə aşağı salınmalıdır. İkincisi, real sektora vergi siyasəti ilə bağlı müxtəlif stimullaşdırıcı güzəştlər edilməlidir. Belə olanda sahibkar əldə etdiyi vəsaiti öz istehsal prosesinə qoymaqda maraqlı olacaq və investisiyaların yerləşdirilməsi innovasiyalara səbəb olacaq. İnnovasiyalar da məhsulun maya dəyərinin aşağı düşməsi deməkdir". Onun fikrincə, burada kreditlər, fiskal tənzimləmə, ticarət mübadiləsi, qiymət siyasəti ilə bağlı sistemli yanaşma olmalıdır: "Bazar iqtisadiyyatı şəraitində dövlətin qiymət siyasətinə müdaxiləsindən çəkinməməliyik. Çünki bütün normal iqtisadi sistemlərdə dövlət qiymət siyasətini tənzimləyir. Bizdə bazar iqtisadiyyatı dedikdə bir çoxları xaos başa düşür. Xaos olanda, dövlət tam şəkildə bazardan çəkiləndə və bazarda inhisarçılar öz mövqelərini diqtə edəndə, sözsüz ki, qiymətlər qalxacaq. Ona görə ki, yüksək maya dəyərli məhsul alan sahibkarlar onun satışına öz ticarət əlavəsini də qoyanda qiymətlər artır. Rəqabət üstünlükləri ilk növbədə məhsulun maya dəyəri ilə bağlıdır. Məhsulun maya dəyəri yüksək olanda xarici bazarlara çıxmaq da çətinləşir. Xarici bazarlarda rəqabət aparmaq üçün biz mütləq real sektoru stimullaşdırmalıyıq".

Bütün bunlar bir daha göstərir ki, bankların kredit faizlərini aşağı salması böyük zərurətdir. Digər tərəfdən bu, bankların özləri üçün də zəruridir. Belə ki, kredit faizlərinin yüksək olması gələcəkdə kreditin qaytarılmama risqini artırır, nəticədə əsas zərərçəkmiş tərəf bankların özləri olur.

**Belə vəziyyətdə bankların əsas hədəfi ucuz maliyyə resurslarına çıxış əldə etməklə aşağı faizli kreditlər və xidmətlər təklif etmək olmalıdır. Bu hal ümumi ölkə iqtisadiyyatı üçün də zəruri əhəmiyyət kəsb edir. Real bazar da rəqabət tələb edir, rəqabət isə daha aşağı faizlər və keyfiyyətli xidmətlərə əsaslanır. Bunu bankların da nəzərə alması onların effektiv fəaliyyəti üçün mühümdür.**

*Tahir TAĞIYEV*

# Azərbaycanın kənd təsərrüfatında nə baş verir - iri və xırda heyvanlar niyə azalır...

**Bu il yanvarın 1-nə ölkə üzrə 8 milyon 296,3 min baş qoyun və keçi, 2 milyon 658,1 min baş iribuynuzlu mal-qara, o cümlədən, 1 milyon 281,2 min baş inək və camış mövcud olub.**



## *Nicat Nəsirli: "...ölkədəki naxır sürülərinin keyfiyyət göstəricilərinin aşağı düşməsi..."*

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, ötən il yanvarın 1-nə nisbətən qoyun və keçilərin sayı 7,8 min baş (0,1 faiz), iribuynuzlu mal-qaranın sayı 0,7 min baş (0,03 faiz) azalıb. Bununla yanaşı, o da məlum olub ki, son altı ildə iribuynuzlu mal-qaranın sayı 39,4 min baş azalıb. Ötən 6 il ərzində qoyun və keçilərin sayı da azalıb. Bu ilin 1 yanvar tarixinə xırdabuynuzlu mal-qaranın sayı 8,296 min baş təşkil edir ki, bu da 2015-ci ilin əvvəlinə nisbətən 349,1 min və ya 4,1 faiz azdır.

Göründüyü kimi, ölkədə görülən bəzi tədbirlərə baxmayaraq, iri və xırdabuynuzlu mal-qaranın sayı azalmaqda davam edir. Nəzərə almaq lazımdır ki, 2004-cü ildən etibarən Azərbaycana xaricdən cins mal-qara idxalına başlanıb. Kənd Təsərrüfatı Nazirliyi "Aqrolizinq" ASC vasitəsilə ötən 14 ildə ölkəyə 35 min başdan yuxarı cins mal-qara gətirilərək, lizinq yolu ilə aqrar istehsalçılara satılıb. Dövlət cins heyvanların dəyərinin 50 faizini özü qarşılayır.

Maraqlıdır, bütün bunlara rəğmən, ölkədə iri və xırdabuynuzlu mal-qaranın sayı niyə azalır?

Sözügedən məsələ ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyinin mövqeyini öyrənə bilmədik.

Məsələyə münasibət bildirən aqrar sahə üzrə ekspert Nicat Nəsirli azalmanın səbəbini bir sıra faktorlarla əlaqələndirdi: "Naxır sayının azalması müxtəlif faktorlarla bağlıdır. Səbəblərdən biri örüş-otlaq sahələrinin keyfiyyət göstəricilərinin aşağı düşməsidir. Digər tərəfdən, azalma iri və xırdabuynuzlu heyvanlar arasında xəstəlik hallarının artması ilə əlaqədardır. İqlim amilləri ilə əlaqədar xəstəliklər artıb. Başqa bir tərəfdən, naxır sürülərində qısırlıq halları daha çoxdur. Bu da ölkədəki naxır sürülərinin keyfiyyət göstəricilərinin aşağı düşməsi ilə bağlıdır. Heyvandarlıqda əsas rol oynayan amil yem təminatıdır. Çünki xərclərin 70 faizini yem faktoru müəyyən edir. Eyni zamanda da damazlıq dölvermə heyvanların baş sayının artımında vacib rola malikdir. Son illər iqlim amillərinin dəyişməsi, qışın mülayim keçməsi, örüşlərdə baş verən səhralaşma, ümumilikdə, heyvanların sayının azalmasına təsir göstərir".

## *"Heyvanlar arasında xəstəlik halları artıb"*

N.Nəsirlinin fikrincə, qabaqlayıcı tədbirlər görülməsə, iri və xırdabuynuzlu malqaranın sayı azalmaqda davam edəcək: "Ona görə də heyvandarlıqda yarımqapalı sistemə keçməliyik. Yəni heyvanları günün yarısı qapalı, digər yarısını da açıq şəraitdə saxlamaq lazımdır. Bizdə heyvanlar əsasən açıq şəraitdə otarılma hesabına saxlanır. Bu isə naxırda ümumi keyfiyyət göstəricilərinin yüksəlməsinə imkan vermir. Ona görə də biz məcburuq ki, əkinçilikdə olduğu kimi, heyvandarlıqda da innovativ texnologiyalardan istifadə edək. Bu texnologiyaların başında qüvvəli yem istehsalının təşkil edilməsi dayanır. Yəni əsasən yaşıl yem istehsal olunmalıdır. Ona görə də bu kimi amillər nəzərə alınmalıdır. Ən nəhayət, ümumi qlobal tendensiya da var. O da ondan ibarətdir ki, əksər ölkədə olduğu kimi, Azərbaycanla qonşu ölkələrdə də qırmızı ətə tələbat artıb. Bu, hardasa bizə də öz təsirini göstərir".

*Vidadi ORDAHALLI*

31 yanvar 2020
№ 17 (4148)

# İstifadə etdiyimiz maskalar bizi virusdan tam qoruya bilirmi...

**Mövsüm dəyişikliyi ilə əlaqədar bəzi viruslar və xəstəliklər fəallaşmağa başlayıb. Xəstəliklərə yoluxmamaq və yoluxdurmamaq üçün bir sıra qoruyucu vasitələrdən istifadə edilir. Bu vasitələrdən biri də tibbi maskalardır.**



## *Adil Qeybulla: "Tibbi maska insan nəfəsindən nəmlənir və bu da əlavə təhlükə yaradır"*

Məlumdur ki, hazırda yayılmış kəskin respirator virus infeksiyalarından qorunmaq üçün küçəyə çıxarkən qoruyucu maskalardan istifadə edən xeyli insanla rastlaşırıq. Ancaq həkimlər arasında belə bir fikir var ki, qoruyucu maskalar heç də qoruyucu deyil. Onların fikrincə, tibbi maskalar insanları hər hansı bir virusdan, xəstəlikdən qorumur.

Məsələ ilə bağlı fikir bildirən professor, həkim-ekspert Adil Qeybulla qeyd etdi ki, cəmiyyətimiz lazımi səviyyədə maariflənmədiyi üçün, tibbi maskalardan istifadə birmənalı olaraq qarşılanmır: "İnsanlar maskalı insan görəndə, sözün əsl mənasında, onu qınayırlar. Fikirləşirlər ki, həmin insan hansısa yoluxucu xəstəliyin daşıyıcısıdır, ağır xəstəliyi var. Bununla da özündən yoluxmanın qarşısını alır. Buna görə də həmin şəxsə yaxınlaşmaq istəmirlər. Metroda, avtobusda heç kim həmin insanlarla yan-yana durmaq istəmir. Elə hesab edirlər ki, hava, tənəffüs yolu ilə ondan hansısa ağır bir xəstəliyə yoluxarlar. Kimsə düşünmür ki, o, öz sağlamlığını qorumaq üçün maskadan istifadə edir. İnsanlar o qədər qıraqdakını qınamağa, irad tutmağa öyrəşiblər ki, kimdəsə elə bir şey görəndə, onun ağır xəstəlik daşıyıcısı olduğunu düşünürlər".

Həmsöhbətimiz onu da vurğuladı ki, virusların əksəriyyəti hava-damcı yolu ilə yayılır. Maskalar isə havadakı virusları keçirmədiyi üçün effektlidir: "Bu maskalar virusların yayılmasının qarşısını almaqda xüsusi kömək etmiş olur. Lakin maskalardan daimi istifadəyə ehtiyac yoxdur. İnsanların kütləvi olduğu yerlərdə, ictimai nəqliyyatda və s. taxmaq lazımdır. Bəzən insanlar xəstə olarkən ev şəraitində də maskadan istifadə edirlər. Evdə qoruyucu maska taxmağa ehtiyac yoxdur. Onun əvəzində otağın havasını dəyişmək, otağa gün işığının düşməsini təmin etmək lazımdır. Kəskin respirator viruslardan qorunmaq üçün tək maskadan istifadə deyil, digər tədbirlərin görülməsi də vacibdir".

> *"Kəskin respirator viruslardan qorunmaq üçün tək maskadan istifadə deyil, digər tədbirlərin görülməsi də vacibdir"*

Professorun sözlərinə görə, xəstə insanın orqanizmində viruslar sürətlə çoxalmağa başlayır. Viruslar selikli qişalarda yaşayır - burunda, ağızda. İnsan nəfəs verəndə havaya çoxlu sayda virus düşür. Bu viruslar çox kiçikdir, mikroskopikdir - təxminən 10 nm. Adi tibbi maska bu virusları asanlıqla buraxır. Bundan əlavə, 1-2 saatdan sonra maska insan nəfəsindən nəmlənir və bu da əlavə təhlükə yaradır: "Viruslar və müxtəlif mikroblar üçün nəm mühit ən əlverişlidir. Beləliklə, 1-2 saatdan sonra maska artıq infeksiya mənbəyinə çevrilir. Tibbi maska yalnız bir halda müəyyən kömək edə bilər - bu maskanı xəstə insan taxdıqda. Xəstə insan asqırır və öskürür və bu zaman ətraf mühitə onun ağız suyu ifraz olunur.

**Ağız suyunda virusların miqdarı adi nəfəsalma zamanı buraxılan hava ilə müqayisədə, təbii ki, daha çoxdur. Maska ağız suyunun damcılarını çölə buraxmır. Bu halda maska müəyyən kömək edə bilər. Lakin maskanı hər 1-2 saatdan bir dəyişmək, istifadə olunmuş maskanı ehtiyatla çıxarıb dərhal atmaq və sonra əlləri yaxşı yumaq lazımdır".**

*Günel CƏLİLOVA*

# Pizzada kauçuk? - "Gənclik Mall"dakı hadisəyə "Özsüt"ün reaksiyası...



*"Özsüt" restoranlar şəbəkəsi daim təqdim etdiyi məhsulların və xidmətin keyfiyyətinin yüksək olması üzərində çalışır"*

## ***"Özsüt" restoranlar şəbəkəsi:*** *"Araşdırma zamanı xanımın iddialarının doğru olmadığı aşkar olundu"*

**Müştəri "Özsüt" restoranlar şəbəkəsinin "Gənclik Mall"da yerləşən filialından şikayətlənir. Şikayətçi sosial şəbəkə vasitəsilə başına gələn hadisəni yazaraq bildirib ki, restoranda yediyi pizzadan kauçuk çıxıb.**

Bununla bağlı restoranın məsul şəxslərinə iradını bildirsə də, hər hansı bir tədbir görülməyib.

Hadisə ilə bağlı "Özsüt" restoranlar şəbəkəsi ilə əlaqə saxladıq. Adıçəkilən restorandan bizə verilən məlumatda bildirildi ki, "Özsüt" daim təqdim etdiyi məhsulların və xidmətin keyfiyyətinin yüksək olması üzərində çalışır: "Hər hansı kiçik anlaşılmazlıqlar və ya xoşagəlməz hadisələr zamanı dərhal araşdırmalar aparıb müştərilərə geridönüş edilir. Eyni şəkildə müştəri tərəfindən gələn şikayətə baxıldı, ilk öncə şöbə rəhbəri ilə əlaqəyə keçdik, iddiaların doğru olmadığını gördükdən sonra rəhbərlik səviyyəsində daxili araşdırmalara keçildi. Kameraların görüntülərinə baxıldı, informasiya toplandı. Xanımın bildirdiklərinin heç birinin doğru olmadığı aşkarlandı. Xanım pizzanın yarısından çoxunu yedikdən sonra ofisiantı çağırır və pizzanın üzərindəki qurumuş mazorella pendirinin (pizzanın bişərkən kənarında qalan hissəsindən) bir hissəsi olduğunu bildirir. Xanım pizzanı yeməyə davam edir.

Sonda bir dilim qabda saxlanılır, xanım ödənişi edərək kənarlaşır. "Özsüt" olaraq xanıma geridönüş etdik, mülayim şəkildə məlumatı bildirdik".

*Günel CƏLİLOVA*

# Xırdalanda anasını qəsdlə bıçaqlayan oğulun cinayətinin təfərrüatları...



**Abşeron rayonunda oğulun anasına çoxsaylı bıçaq zərbələri yetirib onu öldürməyə cəhd etməsi faktı ilə bağlı cinayət işi başlanıb.**

Bu barədə "Bakı-Xəbər"ə Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov məlumat verib. K.Zeynalov bildirib ki, yanvarın 29-da saat 19 radələrində Abşeron rayonu, Xırdalan şəhərində yerləşən yataqxanaların birində yaşayan 1965-ci il təvəllüdlü Səlmirə Nəqiyevanın bıçaqlanması barədə daxil olan məlumat əsasında dərhal polis və prokurorluq əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilib.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

İlkin istintaqla hadisənin Səlmirə Nəqiyevanın oğlu - 1996-cı il təvəllüdlü Nazim Nağıyev tərəfindən yaşadıqları evdə şəxsi münasibətlər zəminində yaranmış mübahisə zamanı bıçaqla çoxsaylı xəsarətlər yetirilməklə törədilməsinə əsaslı şübhələr müəyyən olunub.

Nazim Nağıyev Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə nəzərdə tutulan cinayət əməlini törətməkdə şübhəli şəxs qismində tutulub. O, müdafiəçinin iştirakı ilə dindirilərkən törətdiyi əməli etiraf edib.

Hazırda S.Nəqiyevanın vəziyyəti ağır qiymətləndirilməklə stasionar şəraitdə müalicələri davam etdirilir.

İş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Kiçikyaşlı qızların ərə verilməsi üzərində məhdudlaşdırıcı tədbirlər deyəsən zəifləyib...

*Əhməd Qəşəmoğlu: "Qızların erkən ərə verilməsinin qarşısının alınması üçün təcili olaraq yeni fəaliyyət proqramı hazırlanmalıdır"*

**Arzuolunmaz hal olsa da, təəssüf ki, qızların erkən ərə verilməsi hallarının baş verdiyi bir cəmiyyətdə yaşayırıq. Ölkəmizdə bütün qanunlar uşaq nikahının əleyhinə olsa da, rəsmi dövlət qurumları, qeyri-hökumət təşkilatları yetkinlik yaşına çatmayan şəxslərin ailə həyatı qurmasına qarşı çıxsalar da, bu halın aradan qaldırılması üçün maarifləndirici tədbirlər həyata keçirsələr də, yenə də erkən nikahların qarşısını almaq mümkünsüz bir hala çevrilib.**

Cəmiyyətdə erkən nikah əleyhinə maarifləndirmə işlərinin gücləndirilməsi belə, bu sahədə elə də böyük effekt vermir, nəticələr ürəkaçan deyil. Qızların erkən ərə verilməsi, nikaha cəlb edilməsi ənənəsi uzun illərdir cəmiyyətimizdə bir stereotip kimi mövcuddur və buna qarşı bütün mübarizə tədbirləri də hər hansı bir effekt vermir. Nə qədər erkən nikah əleyhinə çox danışıb, çox yazırıqsa, bir o qədər də yeni erkən nikahlar peyda olur. Erkən nikaha cəlb edilən uşaq və yeniyetmə qızların bir çoxunun həyatının faciəli sonluqla bitməsi cəmiyyəti silkələməli, ayıltmalıdır. Əlbəttə, qızların erkən ərə verilməsinin əsas səbəbkarı onların valideynləri, ata və anaları, yaxınlarıdır.

Təəssüf ki, XXI əsrdə yaşamağımıza baxamayaraq, hələ də bir xeyli ailədə qızlara "duz yükü" kimi baxılır və elə bilirlər ki, qızlarından tez bir zamanda can qurtarmasalar, o, evin bir küncündəki "un çuvalı"na tay olacaq, qarıyıb evdə qalacaq. Bu stereotiplərdən yaxa qurtarmalıyıq və qızların erkən nikaha daxil olmasının qarşısını almalıyıq. Cəmiyyət olaraq qızlarımıza faciələr yaşadan erkən nikaha qarşı mübarizə aparmalıyıq. Yetkinlik yaşına çatmayan və hələ də gözü oyuncaqlarında, rəfiqələri ilə əyləncələrdə olan qızları öz arzularından qoparıb, onlara gəlinlik paltarı geydirib ər evinə yola salmaq çox böyük nöqsandır. Erkən nikahdan əziyyət çəkən qızların faciələri bir deyil, beş deyil. Statistikaya görə, bu gün boşanmalar arasında erkən nikahlar daha üstünlük təşkil edir. Uşaq yaşında ərə verilən qız qısa bir vaxtdan sonra yeni ailəsi ilə yola getməməyə başlayır, yaxud ailə onu yola vermir, faciə də buradan başlayır. Hətta iş o yerə çatır ki, təzə gəlin özünə əl qaldırır, intihara əl atır, ya da Masallıdakı kimi, əri tərəfindən qətlə yetirilir. Son günlər Masallıda toyları yeni olan, yeni ailə quran 19 yaşlı oğlanın 16 yaşlı həyat yoldaşına yaşatdığı faciə, onu boğaraq qətlə yetirməsi cəmiyyətə böyük sarsıntı yaşatdı. Bu sarsıntı bir daha erkən nikahın mənəvi-psixoloji cəhətdən zərərli bir hal olduğunu təsdiqlədi.

Kiçikyaşlı qızların ərə verilməsi hallarının qarşısının alınması üçün mövcud qanunların, metodların işləkliyinin təmin olunması vacibdir. Ən azından, bu məsələdə yerli qurumlar valideynlərlə maarifləndirici söhbətlər aparmalı, həkimlər, mütəxəssislər bunun zərərləri barədə çox danışmalıdırlar. Yeri gəlmişkən, Gürcüstan azərbaycanlıları arasında geniş yayılan erkən nikah hallarının qarşısının alınması üçün Gürcüstan hökuməti artıq inzibati metodlardan istifadə edir və qızını uşaq yaşında ərə verən valideynlər cərimələnir, cəzalandırılır. Bəzi ekspertlər hesab edirlər ki, qızlarını erkən nikahlayan valideynlər, yaxud azyaşlı qızlarla nikaha daxil olmaq istəyən oğlanlar cəzalandırılmalıdırlar ki, bu hallar təkrarlanmasın.

Məsələ burasındadır ki, erkən nikah hallarının geniş yayıldığı bölgə kimi respublikamızın cənub regionunun adı qeyd olunur. Bu faktdır. Amma digər rayonlarda da bu halın olduğu gizlin deyil. Bakıya nisbətən bölgələrdə erkən nikah halları daha geniş yayılıb.

Qızların erkən ərə verilməsinin qarşısının alınması üçün mövcud məhdudlaşdırıcı tədbirlərin effekt vermədiyini deyən və bu yöndə yeni metodlar işlənib hazırlanmasını vacib sayan tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu "Bakı-Xəbər"ə bildirdi ki, aidiyyəti dövlət qurumları, QHT-lər öz fəaliyyətlərini tamam başqa istiqamətdə qurmalı və yeni qurulacaq işlərdə mütləq elmi yanaşmalardan istifadə etməlidirlər. "Qız uşaqlarının erkən ərə verilməsi və bunun nəticəsində də baş verən faciələrdən cəmiyyətin nəticə çıxa bilməməsinin müxtəlif səbəbləri var. Təkcə erkən nikahın zərərləri barədə danışmaq azdır. Biz bu halın qarşısının alınması üçün vacib olan fəaliyyət proqramı hazırlayıb həyata keçirməliyik, amma hələ bu yöndə fəaliyyət proqramı hazırlamamışıq. Hələ də elə bilirik ki, 20-30 il bundan əvvəlki kimi bir qərarla, bir sərəncamla, tədbirlər keçirməklə qızların uşaq yaşında ərə verilməsinin qarşısını almaq olar, lakin belə deyil. İndi cəmiyyət o qədər mürəkkəbləşib ki, erkən nikahlarla bağlı məhdudlaşdırıcı tədbirlər heç bir effekt vermir. Bu halın qarşısının alınması üçün qanunlar qəbul olunsa da, müxtəlif aksiya və tədbirlər həyata keçirilsə də, yenə də onun qarşısını almaq mümkün olmur. Cəmiyyət mürəkkəbləşdikcə, onu idarə etmək bir qədər də çətinləşir. Ona görə də kompleks tədbirlər görmək lazımdır. Bu isə elmi təminat tələb edir. Bizdə isə elmi təminatı ya lazımi şəkildə qiymətləndirmirlər, ya da ondan istifadəni bacarmırlar. 200 ildir Avropada xüsusi elm sahələri yaranıb, inkişaf edib və cəmiyyətdəki bu kimi prosesləri elmi metodlarla idarə edirlər".

Ə.Qəşəmoğlu hesab edir ki, ilk növbədə, erkən nikahları yaradan səbəblərlə bağlı başdansovdu deyil, sosioloji sorğuların keçirilməsinə, tədqiqatların aparılmasına ciddi ehtiyac var. "Obyektiv şəkildə sosioloji sorğular keçirilərsə, qızlarını uşaq yaşında ərə verən valideynlər də, məcburən ərə verilən o qız uşaqları da öz fikirlərini deyəcəklər, niyə belə addım atıldığının səbəblərini izah edəcəklər. Mən özüm müstəqil şəkildə valideynlərlə söhbət edirəm, onların hansı səbəbdən qızlarını uşaq yaşında ərə verməsinin səbəblərini özlərindən soruşuram. Cavab verirlər ki, müəllim, bu qızı Bakıya oxumağa göndərmək xətalıdır, qızın başına burada nə gələcəyini bilmirsən, qızı oxutmuramsa, ona görə də evdə qalıb mənə yük olmasını istəmirəm. Valideynlərin bu fikirlərini, düşüncələrini dəyişdirmək lazımdır. Hələ də valideynlər arasında qıza yük kimi baxanlar var. Bu psixologiya dəyişməlidir. Bu halın aradan qaldırılması üçün hansı işlər görülməlidir? Bu işlərin nədən ibarət olmalı olduğunu müəyyən etməliyik. Tədris müəssisələrində elə sistem, elə şərait, elə yataqxana şəraiti yaratmalıyıq ki, bölgələrdə yaşayan valideynlər tərəddüd etmədən qızlarını erkən ərə verməyib oxumağa göndərsinlər. Qızların erkən ərə verilməsinin qarşısının alınması üçün təcili olaraq yeni fəaliyyət proqramı hazırlanmalıdır. Bu fəaliyyət proqramında bu halın qarşısını almaq üçün mövcud qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsinin vacibliyi, məktəblərin, mətbuatın, alimlərin, ailələrin üzərinə nə düşdüyü müəyyən olunacaq. Mövcud rəsmi məhdudlaşdırıcı tədbirlər ona görə zəifləyib ki, erkən nikahların əleyhinə danışılır, amma onu yaradan səbəblər araşdırılmır, öyrənilmir. Neçə ildir Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi fəaliyyət göstərir, amma komitə tərəfindən bu işlər görülməyib".

Ə.Qəşəmoğlu hesab edir ki, erkən nikahların qarşısının alınması üçün onun təklif etdiyi məsələlər effekt verə bilər.




*"Mövcud rəsmi məhdudlaşdırıcı tədbirlər ona görə zəifləyib ki..."*

***İradə SARIYEVA***

№ 17 (4148) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

31 YANVAR 2020-ci il

# Koronavirusdan necə qorunmaq olar?



**Virusun ilk dəfə Çinin 11 milyonluq Vuhan şəhərində dəniz məhsulları bazarında heyvandan insana keçdiyi iddia edilir.**

"Milli.Az" xəbər verir ki, heyvandan insana keçən bu xəstələyin daha sonra tənəffüs yolu ilə insandan insana da keçdiyi məlum oldu.

Əlamətləri: Burun axmağı, baş ağrısı, öskürək, boğaz ağrısı, qızdırma, nəfəs darlığı və tənəffüs zamanı çətinlik. Hazırda xəstəliyi müalicə edən heç bir dərman və ya peyvənd tapılmayıb. Sadəcə, simptomların qarşısını almaq üçün müalicələr aparılır. Xəstəliyə yoluxmamaq üçün bəzi profilaktik tədbirlər köməyinizə çata bilər: Tənəffüs yolları xəstəliyi olan insanlarla ünsiyyətdən qaçın, əllərinizi hər dəfə 20 saniyədən az olmamaqla sabunla tez-tez yuyun və dezinfeksiyaedici məhlullarla silin, fermada və ya təbiətdə heyvanlarla birbaşa təmasdan qorunun, öskürərkən və ya asqırarkən kağız salfetlə ağzınızı və burnunuzu tutun, ətrafınızdakılardan da bunu tələb edin. Yüngül soyuqdəyməniz varsa, evdən bayıra çıxmayın, çoxlu maye için, bacardığınız qədər yatın. Boğaz ağrısı və öskürəyiniz varsa, isti duş sizi az da olsa, rahatlaşdıracaq. Qeyd edək ki, ev heyvanlarının da koronavirusa yoluxmaq təhlükəsi var.

## Dünya İranın bu kəndindən danışır - Boyları bir metr olub...



**İranın şimal-şərqində 1500 il əvvəl qurulmuş kənd qeyri-adiliyi ilə hər kəsin marağına səbəb olub.**

"Milli.Az" xəbər verir ki, Makhunik adını daşıyan bu ərazi 2005-ci ildə arxeoloqlar tərəfindən tapılıb. Araşdırmalardan sonra 100 il bundan əvvəl ərazidə yaşayan insanların boylarının ortalama 1 metr olduğu ortaya çıxıb. Eyni zamanda, 25 sm uzunluğunda mumyalanmış cəsədin tapılması burdakı insanların necə balaca boy olduğunu bir daha ortaya qoyub. Alimlər buranın dünyanın ən nadir yerlərindən biri olduğunu bildiriblər.

## Elan

29.01.2020-ci il tarixdə Təhməzova Roza Qaçay qızının adına, Baki şəhəri, Səbail rayonu, Abbaszadə keçidi, ev 221-ə aid torpağın mülkiyyətə verilməsini təsdiq edən şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Qarayev Zakir Famil oğlunun adına, Bakı şəhəri, Bakıxanov qəsəbəsi, V.Həsənov küçəsi, ev 14 ünvanının qeydiyyat vəsiqəsi ("kupça") itdiyi üçün etibarsız sayılır.

Gürzəliyev Mirzə Əli oğlunun adına M.V.052225 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.

Məmmədova Afət Allahquli qızının adına, Bakı şəhəri, Zığ kəndi, Xanlar küçəsi 56 ünvanının qeydiyyat vəsiqəsi ("kupça") itdiyi üçün etibarsız sayılır.

Babayeva Ayşən Adil qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Nar" görmə məhdudiyyətli insanlar üçün audiokitablar hazırladı

**Görmə məhdudiyyətli insanlara dəstək məqsədilə "Nar" və "Radio Antenn"in birgə həyata keçirdiyi "Canlı kitab" layihəsi artıq yekunlaşıb. 3 ay müddətində "Radio Antenn" 101 FM-in efirində Azərbaycan və dünya ədəbiyyatının Azərbaycan dilinə tərcümə olunmuş əsərləri səsləndirilib və audiokitablar şəklində yazılıb.**

Yaddaş kartlarına köçürülmüş audiokitablar Azərbaycan Gözdən Əlillər Cəmiyyəti, Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 №-li Respublika xüsusi internat məktəbi və Respublika Gözdən Əlillər Kitabxanasına təqdim edilib. Bununla da "Nar"ın dəstəyilə yaradılan səsli ədəbiyyat kitabxanası görmə məhduyyəti olan şəxslər üçün daha əlçatan olub.

"Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundovun sözlərinə görə, layihənin əsas məqsədi görmə məhdudiyyətli insanların ədəbiyyata marağının artmasına dəstək olmaqdır: "Nar" fiziki məhdudiyyətli şəxslərə dəstək və insanların elmə marağının artması istiqamətində davamlı olaraq sosial layihələr icra edir. "Canlı kitab" layihəmizlə görmə məhdudiyyətli insanların Azərbaycan dilində mütaliəsi üçün məhdudiyyətin aradan qalxmasına töhfəmizi verməyə çalışdıq. Düşünürük ki, yaradılan audiokitabxana həm görmə məhdudiyyəti olan şəxslərə, həm də ədəbiyyatı sevən insanlara yararlı olacaq. "Nar" olaraq fiziki məhdudiyyətli insanlara dəstək istiqamətində gələcəkdə də əhəmiyyətli layihələr icra etməkdə davam edəcəyik".

Qeyd edək ki, 3 ay müddətində "Radio Antenn" 101 FM-in canlı efirində C.London, Q.Q.Markes, G.De Mopassan, H.Murakami, A.Çexov, C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, M.C.Paşayev, Ə.Haqverdiyev, İ.Məlikzadə, K.Abdulla və digər yazarların müxtəlif əsərləri tanınmış aktyorlar, qiraət ustaları tərəfindən səsləndirilib. "Canlı kitab" layihəsinin əsas məqsədi görmə məhdudiyyətli şəxslər üçün mütalə imkanı yaratmaq və insanların ədəbiyyata marağının artmasına dəstək olmaqdır.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Dünənin müsbət yüklü ab-havası bu gün də davam edəcək. Emosional fonun bir qədər fərqliliyi əhval dəyişkənliyinə yol açır, amma çoxları şən qalmağı bacaracaqlar. Günün ortasında hətta tənbəllər fəallaşacaqlar: əksər insanlarda qəflətən iş görmək həvəsi yaranacaq.



**Buğa** - Entuziazm, böyük ümidlər, yaxşılığa doğru dəyişikliklərə inam - bu günün əsas devizidir. Bəzən bunlar yalançı ümidlər yaradacaq, ən çox da qadınlarda.



**Əkizlər** - Gücünüz yetərlidir. Çəkinməyin, əlqolunuz yanınıza düşməsin. Cəmiyyətdə bir qədər ruh yüksəkliyi, xoş əhval hökm sürür. Bu səbəbdən çoxları xırda anlaşılmazlıqlara, xoşagəlməzliklərə fikir vermir.



**Xərçəng** - Həyəcanlanmayın, sevinməyə çalışın. Həyat enerjiniz çox deyil, odur ki, ciddi işlərdən çəkinin. Sevdiyiniz bir işlə məşğul olun, yaxınlarınızla ünsiyyət saxlayın: nə qədər çox xoş emosiyalarınız olsa, bir o qədər yaxşıdır.



**Şir** - Uğurlu gündür. Xüsusən, danışıqlarda müvəffəqiyyət qazanacaqsınız. Kimisə dilə tutmaq, razı salmaq, inandırmaq, öz tərəfinizə çəkmək bu gün sizə asan olacaq. İşlə bağlı maraqlı ideyalarınız yaranacaq.



**Qız** - Yaxınlarınızla münasibətiniz ahəngdardır. Hər hansı bir məclisdə istənilən qonaqsınız. Odur ki, evdə oturmayın, qonaq gedin, konsertə getməyə çalışın. Günün ortasında romantik görüş gözlənilir.



**Tərəzi** - Bu gün həm gözlənilən, həm də təsadüfi sevinclərlə doludur. Xoş xəbərlər, gözlənilməyən şəxslərdən hədiyyələr, çoxdan vacib bir söz söyləmək istədiyiniz biri ilə görüş gözləyir.



**Əqrəb** - Özünüz və yaxınlarınız üçün əlləşibvuruşmaqdan yorulmursunuz. Və bu əməyiniz hədər getməyəcək. Tapdanmış cığırlarla getmirsiz, yeni yollar axtarıb tapırsınız, bunlar həm qısa, həm də xoş olacaq.



**Oxatan** - Xoş tendensiyalar həyatın bütün sferalarına təsir göstərir. Bu isə imkanları genişləndirir. Sizdən yalnız məqsədinizə çatmaq üçün vacib olan məsələləri seçib ayırmaq və onları həll etmək tələb olunur.



**Oğlaq** - Bu gün özləri və ətraflarındakılar üçün məqsədlər və onların həyata keçirilməsi üçün planlar fikirləşib tapa bilərsiniz. Xoşbəxtlikdən, hələlik heç nə reallaşdıra bilmirsiniz, yoxsa, çoxlu səhv edərdiniz.



**Dolça** - Bu gün həyatınızda çox ciddi dəyişiklik baş verə bilər. Bu bürcün nümayəndələri həmin dəyişikliyi əvvəlcədən hiss edir və haqlı olaraq ona əvvəlcədən köklənirlər. Vaxtınız hədər getməyəcək.



**Balıqlar** - Bu günlə sizin daxili vəziyyətiniz uyğunlaşmır: vuruşmaq, üsyan etmək istəyirsiniz. Amma nə barrikada var, nə döyüş yoldaşları, nə də dəyərli bir düşmən. Odur ki, bu xülyalardan əl çəkin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Bu cihaz zəlzələdən 10 dəqiqə öncə xəbərdarlıq edəcək

**Balıkesirli elektronika mühəndisi Cengiz Çetin "DeHa" adını verdiyi cihazla zəlzələni baş verməzdən öncə öyrənə biləcəyini iddia edib.**

"Milli.Az" xəbər verir: mühəndis bildirib ki, ixtira etdiyi qurğu ilə yeraltı təkanlardan öncə yaranan elektromaqnit dalğalar vasitəsilə 5 ballıq zəlzələdən 10 dəqiqə əvvəlcədən xəbər tutmaq mümkündür: "Dünyanın ən yaxşı professoru da gəlsə, istifadə etdiyim sistemin nə olduğunu anlaya bilməz.

İcadım tamamilə elmi xarakter daşıyır. Tayvanlı zəlzələ mütəxəssisi Dayson Lin də məndən qurğu barəsində məlumat istəyib.

Son günlərdə ard-arda baş verən zəlzələlər məni "Zəlzələ xəbərçisi"ni icad etməyə sövq etdi".

Qeyd edək ki, "DeHa"nın iki özəlliyi var: siqnal vermək və əvvəlcədən cihazın yaddaşına yazılmış 2 nömrəyə mesaj göndərmək.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.